8 aprel 2022 №27 (1900)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Sülh sazişinə doğru proses başlayıb

### Şarl Mişel: "Bu gecə mühüm bir addım atdıq"



Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla gözəl və çox səmərəli görüş keçirdik. Cənubi Qafqazda sabitlik, təhlükəsizlik və inkişaf Avropa İttifaqı üçün olduqca mühümdür. Ona görə də biz bütün müsbət səyləri, etimadyaratma tədbirlərini dəstəkləməklə məşğuluq və bu gecə böyük bir irəliləyişə nail olduq.

Bu sözləri aprelin 6-da axşam Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın hökumət başçısı Nikol Paşinyan ilə görüşdən sonra Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel jurnalistlərə müsahibəsində deyib.

Xəbər verildiyi kimi, aprelin 6-da Brüsseldə üçtərəfli görüşdən öncə Şarl Mişelin İlham Əliyev və Nikol Paşinyan ilə təkbətək görüşləri də olub.

Prezident İlham Əliyev Şarl Mişel ilə görüşdə onun Ermənistanla Azərbaycan arasında postmünaqişə dövründə münasibətlərin normallaşması prosesinə verdiyi töhfəsini yüksək qiymətləndirib və ötən ilin dekabrında keçirilmiş üçtərəfli görüşdə müəyyən edilmiş Brüssel sülh gündəliyinin əhəmiyyətini vurğulayıb. Dövlət başçısı Brüssel sülh gündəliyinin davamı olaraq Ermənistan tərəfinin iştirakı ilə üçtərəfli formatda növbəti görüşün nəticəyönümlü olacağına ümid etdiyini deyib.

davamı səh. 2-də

# Özbəkistanda Azərbaycan mədəniyyəti günləri

### Daşkənd və Termez şəhərlərində silsilə tədbirlər keçirilir




6-9 aprel tarixində Özbəkistanda Azərbaycan mədəniyyəti günləri keçirilir. Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı, iki ölkənin Mədəniyyət nazirlikləri və Azərbaycanın Özbəkistandakı Səfirliyinin dəstəyi ilə reallaşan tədbirlər paytaxtla yanaşı, Sırxandərya vilayətini də əhatə edəcək.

Mədəniyyət günlərinin açılış mərasimi aprelin 6-da AMM-də keçirilib. Öncə Azərbaycandan gələn qonaqlar AMM-nin qarşısında ulu öndər Heydər Əliyevin abidəsinin, habelə "Şəhidlər" abidə kompleksinin qarşısına əklil və çiçək dəstələri qoyublar.

Azərbaycan nümayəndə heyətinə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, millət vəkili, parlamentdə Azərbaycan-Özbəkistan dostluq qrupunun üzvü Müşfiq Cəfərov, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov, alimlər, incəsənət xadimləri daxildir.

AMM-in direktoru Samir Abbasov mərasim iştirakçılarına rəhbərlik etdiyi qurumun işi, burada fəaliyyət göstərən kurs və dərnəklər haqqında məlumat verib, habelə qonaqları AMM-dəki Heydər Əliyev muzeyi, Özbəkistan-Azərbaycan dostluğu və Azərbaycan dövlətçiliyi tarixi muzey-guşələri ilə tanış edib.

Mədəniyyət günlərinin ilk tədbiri olaraq Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanasında Azərbaycan fondunun açılış mərasimi olub.

Kitabxananın direktoru Umida Teşabayeva çıxış edərək Azərbaycanla əlaqələr, AMM ilə birgə həyata keçirilən layihələr və əməkdaşlıqdan danışıb. Bildirib ki, AMM və Azərbaycan Milli Kitabxanasının dəstəyi ilə son zamanlar Özbəkistan kitabxanalarına Azərbaycana dair çoxsaylı nəşrlər hədiyyə olunub.

davamı səh. 8-də

## "Sənət üçün qaç" – incəsənət və idmanı birləşdirmək

Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi, Mədəniyyət Nazirliyi və İtaliya Milli Olimpiya Akademiyasının "Culio Onesti" Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Run for Art" ("Sənət üçün qaç") beynəlxalq fotomüsabiqəsi başa çatıb. Aprelin 6-da Beynəlxalq Muğam Mərkəzində fotomüsabiqənin yekun sərgisi açıldı.

Tədbirdə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, qurumun baş katibi Azər Əliyev, mədəniyyət naziri Anar Kərimov, İtaliya Milli Olimpiya Akademiyasının vitse-prezidenti, "Culio Onesti" Fondu İdarə heyətinin üzvü, dağ-xizəksürmə üzrə Olimpiya mükafatçısı xanım Klaudia Cordani (Claudia Giordani) və digər qonaqlar iştirak edirdi.




Əvvəlcə Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyəti haqqında məlumat diqqətə çatdırıldı.

Sonra "Culio Onesti" Fondu İdarə heyətinin üzvü Klaudia Cordani çıxış etdi. Layihə haqqında məlumat verən italiyalı qonaq bildirdi ki, "Sənət üçün qaç" gənc fotoqraflar üçün "Culio Onesti" Fondu tərəfindən hazırlanmış beynəlxalq müsabiqədir. Müsabiqənin məqsədi incəsənət və idmanı birləşdirməkdir.

Müsabiqə 18-35 yaş arası, dünyanın istənilən ölkəsindən qatıla biləcək həvəskar və peşəkar fotoqraflar üçün nəzərdə tutulub. Hər müsabiqə üçün 5 fərqli aspektə görə mövzu təklif olunur: kateqoriyaların sayı simvolik olaraq 5 Olimpiya halqasını ifadə edir. İdmanda etika, müxtəliflik və inklüzivlik kimi mövzular idman və fotonun köməyi ilə araşdırılır.

davamı səh. 3-də

## Qazaxıstan səfirliyi "Qarabağa kitabla gedək!" kampaniyasına qoşulub

Qazaxıstanın ölkəmizdəki səfirliyi Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə həyata keçirdiyi "Qarabağa kitabla gedək!" kampaniyasına qoşulub.

Aprelin 6-da səfir Serjan Abdıkarimov Azərbaycan Milli Kitabxanasında olub və qazax ədəbiyyatına dair 520-dən artıq kitabı kitabxanaya hədiyyə edib. Milli Kitabxanada olmasından məmnunluğunu ifadə edən diplomat Qarabağın işğaldan qurtuluşundan sonra Şuşaya səfər etdiyini və oradakı vəziyyətlə tanış olduğunu bildirib.

səh. 2

## Böyük Mirzənin mirası

Həyat və yaradıcılığını xalqımızın maarifləməsi, milli mətbuatın formalaşması və tərəqqisi işinə həsr edən və dönməz mübariz kimi özündən sonra gələn böyük bir ədəbiyyatçılar, maarifçilər nəslinin yetişməsinə rəvac verən imza kimi Mirzə Cəlil bizim bədii düşüncəmizdə öz uca məqamındadır.

Bu mənada onun daim müasir, daim maarifçi və daim xəlqi olan yaradıcılıq nümunələri, məhsuldar, fədakar, xidmətləri arasında, sözsüz ki, yaradıcısı olduğu "Molla Nəsrəddin" jurnalının ayrıca yeri var.

Aprelin 7-də ilk nömrəsi ilə, "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım!" tarixi xitabı ilə oxucuların görüşünə gələn müsəlman Şərqinin ilk karikaturalı satirik jurnalı "Molla Nəsrəddin"in (1906-1931) yaranmasının 116 ili tamam oldu.

Bu münasibətlə ədibin Bakıdakı mənzil-muzeyində "Molla Nəsrəddin" – 116" adlı tədbir keçirildi.

Tədbiri giriş sözü ilə muzeyin böyük elmi işçisi, direktor vəzifəsini icra edən Yeganə Məmmədova açaraq böyük ədibin irsinin istər tədqiqatçılar, istərsə də sadə oxucular tərəfindən daim maraqla qarşılandığını dedi.

davamı səh. 3-də







## "Barokko günləri" – beynəlxalq musiqi festivalı

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 23-26 aprel tarixində Bakıda "Barokko günləri" Beynəlxalq Musiqi Festivalı keçiriləcək.

Festivalın proqramına M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyası, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Kamera və orqan musiqisi zalı və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında konsertlər, tamaşa, ustad dərsləri daxildir. Sənətsevərlər barokko musiqisi nümunələrini azərbaycanlı ifaçılarla yanaşı, İtaliya, Türkiyə, Ukrayna və Gürcüstan musiqiçilərinin də təfsirində dinləyəcəklər.

Festivalın açılışında XVIII əsrin görkəmli alman bəstəkarı K.V.Qlyukun "Orfey və Evridika" operasının premyerası təqdim olunacaq.

Həmçinin solo klavesin konserti, Tbilisi Dövlət Kamera Orkestri və Azərbaycanda fəaliyyət göstərən, repertuarı ancaq Barokko dövrü bəstəkarlarının əsərlərindən ibarət olan "D'accordo" ansamblının çıxışı nəzərdə tutulub.

Festival çərçivəsində dünya şöhrətli musiqi xadimi, Roma, San Karlo və digər opera teatrlarının bədii rəhbəri olmuş, D'arte Lirika Akademiyasının direktoru, professor Vinçenzo de Vivonun (İtaliya) ustad dərsi keçiriləcək.

## Ağdaban faciəsindən otuz il ötür

Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin ən qanlı səhifələrindən biri Kəlbəcər rayonunun Ağdaban kəndində törədilən qırğındır.



8 aprel 1992-ci ildə Ermənistan silahlı dəstələri Ağdaban kəndinə hücum edərək kütləvi qırğın törədiblər. 130 evdən ibarət kənd yandırılıb, kəndin 32 sakini (o cümlədən 8 qoca, 2 uşaq, 9 qadın) qətlə yetirilib.

Ağdabanda törədilən qətliamla ermənilər Kəlbəcərin işğalı üçün planlar hazırlayırdılar. Düşmən planlı şəkildə hərəkət edirdi. Erməni silahlı birləşmələri Ağdərə rayonunun Çapar kəndi istiqamətindən Çayqovuşan və Ağdaban kəndlərinə hücum edərək əhaliyə divan tutdular.

Həmin müdhiş gecə kəndin səkkiz sakini diri-diri odda yandırılmışdı. Kəndi oda verən düşmən ağdabanlı şair Qurbanın və onun oğlu Aşıq Şəmşirin əlyazmalarını da yandıraraq bütün külliyyatını məhv etmişdi.

44 günlük Vətən müharibəsində qazanılan qalibiyyət, ərazi bütövlüyümüzün bərpası, o cümlədən Kəlbəcər rayonunun işğaldan azad edilməsi Ağdaban soyqırımını törədən canilərin də üzərində tarixi zəfər oldu.

Ağdaban sakinlərinin intiqamı düşməndən alındı. Amma qan yaddaşı yaşayacaq...

## Ömrünü teatra bağlayıb, səhnədən incik gedən sənətkar

Azərbaycan kinosunda axund, molla obrazları deyilincə ilk ağıla gələn mərhum sənətkar, Əməkdar artist Hacıməmməd Qafqazlı (1898-1982) olur. Uzun illər Akademik Milli Dram Teatrında çalışan aktyoru müasir tamaşaçı daha çox filmlərdəki rollarından tanıyır.

Hacıməmməd Qafqazlının qızı, filologiya üzrə fəlsəfə doktoru Nəzakət Qafqazlı ilə söhbətimizdə aktyorun ömür və sənət yoluna nəzər saldıq.

– Atam filmlərdə az çəkilib. Teatrda 200-dən çox irili-xırdalı rol ifa edib. Cəfər Cabbarlının bütün pyeslərində çıxış edib. Təkcə "Yaşar"da oynamayıb. "Solğun çiçəklər"də Axund rolunu elə oynamışdı ki, görmək lazım idi...

səh. 6

Şövkət Məmmədovanın 125 illiyinə həsr olunmuş tədbir



səh. 2

Hüseyn Cavidin "İblis"i Türkiyə Dövlət Teatrlarının repertuarına salınıb

səh. 5



"Tullantıdan sənətə" muzeyini ziyarət etmisinizmi?

səh. 5

№27 (1900)
8 aprel 2022
www.medeniyyet.az



# Sülh sazişinə doğru proses başlayıb

## Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası ilə bağlı ilk toplantı aprelin sonunadək keçirilməlidir

əvvəli səh. 1-də

Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel bu çərçivədə Ermənistan və Azərbaycan arasında aparılan dialoqun əhəmiyyətini qeyd edib. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu yüksək qiymətləndirib.

Görüşdə Avropa İttifaqı ilə Azərbaycan arasında ikitərəfli gündəliyə dair məsələlər müzakirə edilib və əməkdaşlığın müxtəlif istiqamətlər üzrə dinamik şəkildə inkişaf etdiyi qeyd olunub. Söhbət əsnasında regional təhlükəsizliyə dair fikir mübadiləsi də aparılıb.

Prezident İlham Əliyevin Şarl Mişel və Nikol Paşinyan ilə görüşü işçi nahar formasında gerçəkləşib.

Sonra jurnalistlərin qarşısına çıxan Şarl Mişel üçtərəfli görüşün yekunları barədə açıqlama verib.

Avropa İttifaqı Şurasının Prezidenti görüşün səmərəli keçdiyini və birlikdə sülh danışıqları üçün konkret prosesə başlamağa, mümkün sülh sazişini hazırlamağa və bu saziş üçün bütün zəruri elementləri həll etməyə qərar verildiyini bildirib: "Biz, həmçinin həssas məsələ olan delimitasiya ilə bağlı işçi qrupu, birgə komissiya ilə bağlı razılığa gəldik. Əminəm ki, növbəti həftələrdə əldə olunacaq tərəqqini nəzərdən keçirmək üçün bizim aramızda güclü kommunikasiya və koordinasiya olacaq".

Sülh sazişinin imzalanmasının nə qədər çəkəcəyi barədə suala cavabında Şarl Mişel deyib: "Bunu proqnozlaşdırmaq çətindir. Amma dekabrda Brüsseldə hər iki liderlə ilk şəxsi görüş zamanı mən hiss etdim ki, maraqlı bir addım atıldı, tərəflər bir-birini dinləməyə və bir-birini narahat edən məsələləri, həmçinin prioritetləri, hər iki tərəf üçün həssas olan məsələləri daha yaxşı anlamağa meyilli idilər. Bu, birinci vacib element idi. Bu arada, mənim hər iki liderlə müntəzəm telefon danışıqlarım olub. Biz bu axşamkı görüşə çox hazırlaşmışıq. Biz buna vaxt ayırdıq. Bilirsiniz ki, nahardan əvvəl mənim hər iki liderlə ikitərəfli görüşüm oldu. Səmimi desəm, düşünürəm ki, biz çox gərgin çalışırıq, irəliləyiş var. Hər iki tərəfdə olan çağırışları və çətinlikləri gözardına vurmuram. Lakin hesab edirəm ki, irəliləyişə nail olmaq, əməkdaşlıq etmək, prioritetləri, birlikdə ata biləcəyimiz konkret addımları müəyyənləşdirmək üçün ortaq iradə var".

Jurnalistlərin eyni xüsusda daha bir sualına cavab olaraq Avropa İttifaqı Şurasının Prezidenti vurğulayıb ki, bu gecə biz düzgün istiqamətdə mühüm bir addım atdıq. "Əminəm ki, bu gecə biz düzgün istiqamətdə mühüm bir addım atdıq. Əlbəttə, bu, hər şeyin həll olunduğu anlamına gəlmir. Lakin bu o deməkdir ki, biz irəliləyişə nail olmuşuq. Çünki biz ortaq məxrəcə gəlmək, bütün regionda sülhü, təhlükəsizliyi və sabitliyi təmin etmək üçün, ümid edirəm ki, mümkün qədər tez bir zamanda dayanıqlı razılaşma əldə etmək məqsədilə vacib elementlərin nədən ibarət olduğunu daha yaxşı başa düşürük", – deyə o bildirib.

Media mənsublarının təkrarən sülh sazişinə doğru "proses başlayıbmı" sualına cavab lakonik olub: "Proses bu gecə başlayıb".

***

Daha sonra üçtərəfli görüşün nəticəsinə dair Şarl Mişelin rəsmi bəyanatı yayılıb.

Bəyanatda qeyd olunur ki, Avropa İttifaqı Ermənistan və Azərbaycanla əməkdaşlığın dərinləşdirilməsi və regionda yaşayan bütün xalqların faydası naminə təhlükəsiz, sabit, dinc və firavan Cənubi Qafqazın təşviq edilməsinə sadiqdir.

Bildirilir ki, liderlər 2021-ci ilin dekabr ayında Brüsseldə keçirilmiş son görüşdən və 2022-ci ilin fevral ayında Prezident Makronun iştirakı ilə videokonfransdan sonra hadisələrin inkişafını və tərəflərin üzərinə götürdüyü öhdəliklərin icrası ilə bağlı irəliləyişi nəzərdən keçiriblər. Həmçinin tərəflər arasında bu yaxınlarda baş vermiş gərginliklər müzakirə edilib və 2020-ci il 9/10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına tam riayət edilməsinin zərurəti qeyd olunub. Ermənistanın və Azərbaycanın yüksək səviyyəli nümayəndələrinin Brüsseldə Avropa İttifaqının himayəsi altında 2022-ci il martın 30-da keçirilmiş görüşü alqışlanıb və liderlər səviyyəsində əldə olunmuş razılıqların müvafiq şəkildə inkişaf etdirilməsi ilə bağlı bu fəaliyyətin davam etdirilməsinin zərurətinə dair razılığa gəlinib.

### Avropa İttifaqı minatəmizləmə, bərpa və yenidənqurma işlərinə dəstək olacaq

Şarl Mişel etimadı və dinc birgə yaşayışı təşviq etmək məqsədilə hər iki tərəfdən humanitar jestlərin əhəmiyyətini qeyd edib. O, həll olunmamış bütün humanitar məsələlərin tam və çevik həllinə ehtiyacın olduğunu, o cümlədən hələ də saxlanılmaqda olan şəxslərin azad edilməsi və itkin düşmüş şəxslərlə bağlı məsələnin hərtərəfli həllini vurğulayıb və Avropa İttifaqının bu işə dəstək olmağa hazır olduğunu bildirib. Avropa İttifaqı öz növbəsində Azərbaycan və Ermənistan arasında etimadın qurulması tədbirlərinə və humanitar məqsədli minatəmizləmə səylərinə, o cümlədən ekspert məsləhətini təmin etməyə davam etməklə münaqişədən əziyyət çəkən əhaliyə maliyyə yardımının artırılması, bərpa və yenidənqurma işlərinə dəstək olacaq.

Bəyanatda həmçinin iki ölkə arasında bütün zəruri məsələləri əhatə edəcək sülh sazişinin hazırlanması üzərində işləmək üçün xarici işlər nazirlərinə tapşırığın verilməsinə dair razılıq əldə olunduğu diqqətə çatdırılır.

Bildirilir ki, hər iki ölkə arasında sərhədin delimitasiyası və demarkasiyası zəruri olacaq. Bu məqsədlə 2021-ci il 26 noyabr tarixli Soçi Bəyanatına (Rusiya Prezidentinin iştirakı ilə üçtərəfli görüş – red.) müvafiq olaraq aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının iclasının keçirilməsi ilə bağlı razılıq əldə olunub. Birgə Sərhəd Komissiyasının mandatına aşağıdakılar daxil olacaq:



**1.** Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası.

**2.** Sərhəd xətti boyu və onun yaxınlığında sabit təhlükəsiz vəziyyətin təmin edilməsi.

Şarl Mişel qeyd edib ki, qüvvələrin müvafiq məsafədə olmasının təmin edilməsi insident və gərginliklərin azaldılmasının əhəmiyyətli elementidir. O, Avropa İttifaqının məsləhət və dəstək təmin etməyə hazır olduğunu bir daha bildirib.

Liderlər həmçinin Ermənistan və Azərbaycan arasında və daha geniş mənada Cənubi Qafqazda kommunikasiya infrastrukturunun bərpasını da müzakirə ediblər. Prezident Mişel dəmir yollarının bərpası istiqamətində atılmış addımları alqışlayıb, Ermənistanı və Azərbaycanı yol əlaqələrinin bərpası üçün effektiv üsullar tapmağa dəvət edib. Vurğulayıb ki, Avropa İttifaqı bağlılıq əlaqələrinin inkişafını dəstəkləməyə, o cümlədən İqtisadi və İnvestisiya Planına uyğun olaraq və ümumi layihələri müəyyən etmək üçün təklif olunmuş iqtisadi məşvərət forumundan da istifadə etməyə hazırdır.

***

Davamlı sülh, sabit və təhlükəsiz Cənubi Qafqaz istiqamətində çalışmaq üçün Ermənistan və Azərbaycan arasında mühüm səylər və irəliləyiş əldə olunub.

Bunu isə Avropa İttifaqının Xarici siyasət və təhlükəsizlik məsələləri üzrə Ali Nümayəndəsi Cozep Borrell rəsmi "Twitter" hesabında bildirib.

"Mövcud geosiyasi kontekstdə münaqişələrin diplomatik həll yollarını tapmaq həmişəkindən daha vacibdir", - deyə Cozep Borrell qeyd edib.

Rusiya da Azərbaycan və Ermənistanın sülh danışıqları prosesinə başlamaq qərarını müsbət qiymətləndirir.

Bu barədə RF Prezidentinin mətbuat katibi Dmitri Peskov jurnalistlərə bildirib.

D.Peskov deyib: "Aydındır ki, bu, çox sürəkli prosesdir, lakin belə bir sənədin imzalanmasına doğru irəliləyiş özlüyündə müsbət faktdır və alqışlanır".

# Brüssel görüşü bölgənin gələcək əmin-amanlığı üçün önəmli addımdır

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi (XİN) Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi və iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüsseldə baş tutan görüşünə dair məlumat yayıb.

Məlumatda deyilir ki, tərəflərin 2021-ci ilin 15 dekabr tarixində baş tutan birgə görüşünün davamı olaraq keçirilən bu görüş bölgədəki vəziyyətin müzakirəsi, o cümlədən bölgənin təhlükəsizlik, sabitlik və sülh şəraitində inkişafı məsələlərinin müzakirəsinə həsr olunub.

Görüş zamanı postmünaqişə mərhələsində bölgənin inkişafı ilə bağlı Azərbaycanın hər zaman çıxış etdiyi prinsiplər, o cümlədən 2020-ci ilin 9/10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına tam riayət olunması, tərəflər arasında sülh və etimadın təşviq olunması üçün humanitar addımların davam etdirilməsi, iki dövlətin sərhədinin delimitasiya və demarkasiyası üçün konkret addımların atılması və nəqliyyat və kommunikasiyaların açılması məsələləri geniş müzakirə edilib.

Hələ bir il bundan öncə Azərbaycan tərəfindən irəli sürülən təşəbbüs və bir müddət öncə tərəfimizdən təqdim edilən baza prinsipləri əsasında iki ölkə arasında sülh sazişinin hazırlanmasına başlanılması ilə bağlı hər iki ölkənin xarici işlər nazirlərinə təlimat verilib.

İki dövlət arasında sərhədin delimitasiya və demarkasiyasının vacibliyi ifadə edilib və bu xüsusda, cari il aprel ayının sonunadək Birgə Sərhəd Komissiyasının təşkil edilməsi razılaşdırılıb.

Həmçinin iki ölkə arasında nəqliyyat və kommunikasiyaların, o cümlədən həm dəmir yolları, həm də avtomobil yollarının açılmasının əhəmiyyəti qeyd edilib. Aİ-nin nəqliyyat bağlantı infrastrukturunun inkişafını dəstəkləməyə hazır olduğu bir daha bəyan edilib.

"Beləliklə, Aİ Şurası Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşü, Azərbaycanın maraqlarına uyğun olaraq və bölgənin gələcək sülh və əmin-amanlıq şəraitində inkişafının təmin olunması istiqamətində atılmış növbəti önəmli addımdır", – deyə XİN-in məlumatında vurğulanır.

# İstanbul universitetlərində Vətən müharibəsi ilə bağlı seminarlar

İstanbul universitetlərində Vətən müharibəsi zamanı Azərbaycana qarşı aparılan dezinformasiya siyasəti ilə bağlı seminarlar keçirilir.

"Azərbaycana qarşı təzyiqlər Türkiyə ictimaiyyətinin diqqətində" mövzusunda ilk seminar Bağçaşəhər Universitetində baş tutub.

Seminarda Milli Məclisin deputatı, professor Anar İsgəndərov, Türkiyə Universitetləri Məzunları İctimai Birliyi İdarə Heyətinin sədri Tural Əfəndiyev, Bağçaşəhər Universitetinin təhlükəsizlik məsələləri üzrə mütəxəssisi Abdullah Ağar və beynəlxalq hüquq üzrə ekspert Mehmet Uzun çıxış ediblər.

Natiqlər İkinci Qarabağ müharibəsi dövründə Azərbaycana qarşı tətbiq edilən ikili standartlar, beynəlxalq arenada ölkəmizlə bağlı edilən əsassız iddialar və məqsədli dezinformasiyanın ölkə ictimaiyyətini, eləcə də dünya birliyini yanıltmaq üçün hazırlandığını bildiriblər.

Dünya mediasının 44 günlük Vətən müharibəsinə yanaşmasını təhlil edən Abdullah Ağar xüsusilə Qərb KİV-nin müharibə dövrü ərzində tutduğu mövqenin bilavasitə Ermənistan tərəfinin təbliğatını aparmaqdan ibarət olduğunu qeyd edib.

Eyni mövzulu seminar üç gün ərzində İstanbulun müxtəlif universitetlərində təşkil ediləcək.

# Şövkət Məmmədovanın 125 illiyinə həsr olunmuş tədbir

Aprelin 7-də Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində Azərbaycanın ilk qadın opera müğənnisi, teatr xadimi, pedaqoq, SSRİ Xalq artisti Şövkət Məmmədovanın (1897-1981) anadan olmasının 125 illiyinə həsr olunmuş tədbir keçirilib.

Muzeyin şöbə müdiri Xanım Abdinova sənətkarın həyat və yaradıcılıq yolundan söz açıb.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kafedra müdiri, professor, Xalq artisti Xuraman Qasımova Ş.Məmmədovanın Azərbaycan musiqi mədəniyyətinin inkişafında əvəzsiz xidmətlərindən bəhs edib.

Çıxışlarda qeyd olunub ki, unudulmaz müğənni operasevərlərin yaddaşında Rozina ("Sevilya bərbəri"), Cilda ("Riqoletto"), Şahsənəm ("Şahsənəm"), Nərgiz ("Nərgiz"), Gülzar ("Şah İsmayıl"), Gülçöhrə ("Arşın mal alan") və digər partiyaları ilə dərin iz buraxıb. O eyni zamanda bir çox sahələrin birinciləri sırasında olan sənətçilərimizdəndir. Bakıda Teatr Texnikumu onun təşəbbüsü ilə yaradılıb. Bu, həm də Yaxın Şərqdə ilk teatr təhsili ocağı idi. Şövkət xanımın bir müddət direktorluq etdiyi bu texnikumun ilk buraxılışı 1926-cı ildə olub. İlk dəfə bu texnikumu bitirən qadın sənətkar isə məşhur opera müğənnisi Fatma Qədri idi. Şövkət Məmmədova ilk azərbaycanlı qadın müğənnidir ki, 1925-ci ildə Fransada musiqi valları buraxılıb.

Çıxışlar muzeyin materialları əsasında hazırlanmış slayd-şou ilə müşayiət olunub. Şövkət Məmmədovanın ifaları yer alan audio və videoyazılar nümayiş etdirilib.






Tədbiri muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova giriş sözü ilə açaraq. Ş.Məmmədovanın milli mədəniyyətimizin inkişafında xidmətlərindən bəhs edib, onu sənətinə sadiq müğənni kimi səciyyələndirib. Unudulmaz sənətkarın insani keyfiyyətlərindən danışan A.Bayarmova onun pedaqoji fəaliyyəti barədə də məlumat verib.

Tədbir Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri – Əməkdar artist Səbinə Vahabzadə (vokal), beynəlxalq müsabiqələr laureatı, Prezident təqaüdçüsü Ataş Qarayev (vokal), Fatimə Cəfərzadə (vokal) və Roza Səlimovanın (fortepiano) ifalarında Azərbaycan və dünya klassiklərinin əsərlərindən ibarət konsert proqramı ilə davam edib.

# 85 il öncə səhnəyə çıxan "Koroğlu"

## Növbəti nümayiş yubileyə həsr edilib

Aprelin 30-da dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin "Koroğlu " operasının ilk tamaşasının 85 illiyi tamam olur.



"Koroğlu" operası Üzeyir Hacıbəyli yaradıcılığının şah əsəri, ən yüksək zirvəsidir. Əsər milli opera sənətimizin ən dəyərli nümunələrindən biri kimi yarandığı gündən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarında möhkəm yer tutur.

"Koroğlu"nun aprelin 30-da Opera və Balet Teatrında növbəti nümayişi operanın 85 illiyinə həsr olunacaq.

Yubiley tamaşasında Koroğlu partiyasını Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, Əməkdar artist Ramil Qasımov ifa edəcək.

Tamaşada həmçinin Əməkdar artistlər İlahə Əfəndiyeva (Nigar), Cahangir Qurbanov (Həsən xan), Tural Ağasıyev (Həmzə bəy), Xalq artistləri Əli Əsgərov (Vəzir), Əkrəm Poladov (Alı), Fidan Hacıyeva (Xanəndə qız) və başqaları çıxış edəcəklər.

Opera tamaşasını Əməkdar artist, dirijorların beynəlxalq müsabiqələrinin laureatı Əyyub Quliyev idarə edəcək.

# "Nəğmə dolu bir ürəyəm, ey Vətən"

## Elza İbrahimovanın mahnıları səslənəcək

Heydər Əliyev Sarayında görkəmli bəstəkar, Xalq artisti Elza İbrahimovanın mahnılarından ibarət "Nəğmə dolu bir ürəyəm, ey Vətən" adlı konsert təşkil ediləcək.




"Əbədiyaşarlar" layihəsi çərçivəsində iyunun 7-də keçiriləcək konsert proqramında Elza İbrahimovanın sevilən mahnıları tanınmış sənətçilərin ifasında səslənəcək.

İfaçıları Azərbaycan Televiziya və Radiosunun Gülarə Əliyeva adına "Dan ulduzu" instrumental ansamblı və "Qaytağı" ansamblı müşayiət edəcək.

# “Sənət üçün qaç” – incəsənət və idmanı birləşdirmək

## Beynəlxalq fotomüsabiqənin yekun sərgisi açıldı

əvvəli səh. 1-də

Qeyd olundu ki, müsabiqənin final mərhələsinə daxil olan 5 kateqoriyanın hər biri, ümumilikdə 40 fotoşəkil üçün, idman yarışında olduğu kimi, 8 finalçı müəyyən edilir. Fotoşəkillər incəsənət, idman və medianı təmsil edən beynəlxalq münsiflər tərəfindən seçilir. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin baş katibi Azər Əliyev beynəlxalq fotomüsabiqənin münsiflər heyətinin üzvüdür.

Xanım Klaudia Cordani çıxışının sonunda tədbirin təşkilatçılarına təşəkkürünü bildirdi, fotoqraflara uğurlar arzuladı.

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə müsabiqəyə təşkilati dəstək verdiyinə görə Mədəniyyət Nazirliyinə təşəkkürünü bildirdi. Azərbaycan Milli Olimpiya Komitəsinin 30 il əvvəl yarandığını deyən Ç.Hüseynzadə söylədi ki, bu illər ərzində ölkəmizdə güclü olimpiya hərəkatı formalaşıb: “Olimpiya təkcə idman deyil, həm də idmanın təbliğatı deməkdir. Burada təhsil və incəsənət xüsusi yer tutur. Çox şadam ki, müsabiqənin qalibləri arasında azərbaycanlı fotoqraflar da var”.





Sərginin açılışında çıxış edən mədəniyyət naziri Anar Kərimov Azərbaycan Milli Olimpiya Komitəsinin çox uğurlu, şərəfli yol keçdiyini vurğuladı. Dedi ki, bu uğurlu yol ulu öndər Heydər Əliyevin ölkəmizdə idmanın inkişafına qayğısı ilə bağlıdır. Prezident İlham Əliyev ümummilli liderin yolunu uğurla davam etdirir. Möhtərəm Prezidentimizin davamlı qayğısı nəticəsində idmançılarımız bayrağımızı yüksəyə qaldırıb və Azərbaycanı idman ölkəsi kimi tanıdıblar. Milli Olimpiya Komitəsinin fəaliyyəti sayəsində ölkəmizdə idman növləri inkişaf etdirilib, idmançıların beynəlxalq yarışmalarda qazandığı qələbələr yeni nəsildə idmana böyük maraq oyadıb.

İdmanla mədəniyyətin bir-birini tamamladığını söyləyən Anar Kərimov qeyd etdi ki, idman bədəni möhkəmləndirir, mədəniyyət isə ruhu zənginləşdirir.

Çıxışlardan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirildi.

Məlumat verildi ki, müsabiqənin beysbol və softbol kateqoriyasında Tetsu Çi-Çinqli (Tayvan), karate kateqoriyasında Gökhan Taner (Türkiyə), skeytbordinq üzrə Maks Danlap (ABŞ), qayalara dırmanma kateqoriyasında Culia Kasu (Fransa), sörfinqdə isə Ris Beyts (Avstraliya) birinci yerə layiq görülüblər. Mükafatlandırma mərasiminə Türkiyə və Fransadan olan qalib fotoqraflar qatılmışdı.

Ölkəmizdən Nəriman Babayev (“Gənc karateçilərin yarışın açılışında nümayiş etdirdikləri fənd hərəkətləri” fotosu) 3-cü yeri tutub. Həvəskar fotoqraf Bayram Musayev isə skeytbordinq kateqoriyasının finalçıları sırasında yer alıb.

Daha sonra K.Cordani İtaliya Milli Olimpiya Akademiyasının “Culio Onesti” Fondunun xatirə hədiyyələrini Mədəniyyət Nazirliyinə və Azərbaycan Milli Olimpiya Komitəsinə təqdim etdi.

Tədbirin bədii hissəsində muğam və klassik musiqilərdən ibarət konsert oldu.

Qeyd edək ki, “Run for Art” beynəlxalq fotomüsabiqəsi finalçılarının Beynəlxalq Muğam Mərkəzindəki sərgisi aprelin 16-dək ziyarətçilər üçün açıq olacaq.

**Lalə**

# BMA-da şəhid musiqiçi Tamerlan Mahmudovun xatirəsi yad edilib

Vətən müharibəsi şəhidi, istedadlı tuba ifaçısı Tamerlan Mahmudovun xatirəsi aprelin 6-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA) keçirilən konsertlə yad edilib.





Xatirə konserti Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi və Ü.Hacıbəyli adına BMA-nın birgə təşkilatçılığı ilə gerçəkləşib.

Tədbirdə BMA-nın rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəyli, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi Nazim Kazımov, Xətai Rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov, Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestrinin bədii rəhbəri və baş dirijoru, Əməkdar incəsənət xadimi Əlibala Rzayev çıxış ediblər.

Çıxışlarda şəhid T.Mahmudovun istedadlı musiqiçi olması, Vətən müharibəsinə könüllü getməsi, qəhrəmanlığı haqqında söz açılıb.

Şəhidin ailə üzvü Aygün Cabbarova Tamerlanın xatirəsinin əziz tutulduğu, ruhunun yad edildiyi üçün tədbirin təşkilatçılarına təşəkkürünü bildirib.

Sonra T.Mahmudova həsr olunmuş videoçarx təqdim edilib.

Xatirə konsertində Xalq artisti Zəhra Quliyevanın bədii rəhbəri olduğu “Detaşe”, skripkaçılar ansamblı və Əməkdar incəsənət xadimi Əlibala Rzayevin dirijorluğu ilə Azərbaycan Dövlət Nəfəs Alətləri Orkestri çıxış edib.

Proqramda F.Şubertin “Ave Mariya”, Səid Rüstəmovun “İntizar”, F.Bədəlbəylinin “Zəfər” marşı, Q.Qarayevin “Azərbaycan marşı”, Y.Ştrausun “Radetski” marşı, Ü.Hacıbəylinin “Arazbarı” ritmik muğamı, T.Quliyevin “Görüş” filminə yazdığı “Vals”, J.Hornerin “Zorro maskası”, A.Silvestrinin “Kapitan Amerika” marşı, Azərbaycan bəstəkarlarının nümunələrindən ibarət “Fantaziya” və Ə.Rzayevin “Zəfər sevinci” əsərləri səsləndirilib.

Tamerlan Fuad oğlu Mahmudov 1995-ci ildə anadan olub. Xəzər rayonu Mərdəkan qəsəbəsindəki 2 saylı internat məktəbində təhsil alıb. Burada müəllimi Rafael Əzimovdan tuba ifaçılığının sirlərini öyrənib. 2011-ci ildə Dövlət Sərhəd Xidmətinin Nümunəvi hərbi orkestrinə musiqiçi kimi qəbul olunub. Sonra həqiqi hərbi xidmətdə olub. Qayıtdıqdan sonra da müxtəlif hərbi orkestrlərdə fəaliyyət göstərib. Musiqi Kollecində təhsilini davam etdirib.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinə könüllü gedən Tamerlan Mahmudov 18 oktyabrda şəhidlik zirvəsinə yüksəlib.

# Qazaxıstan səfirliyi “Qarabağa kitabla gedək!” kampaniyasına qoşulub




Qazaxıstanın ölkəmizdəki səfirliyi Mədəniyyət Nazirliyi ilə Milli Kitabxananın birgə həyata keçirdiyi “Qarabağa kitabla gedək!” kampaniyasına qoşulub.

Aprelin 6-da səfir Serjan Abdıkarimov Azərbaycan Milli Kitabxanasında olub və qazax ədəbiyyatına dair 520-dən artıq kitabı kitabxanaya hədiyyə edib.

Kitabxananın direktoru, professor Kərim Tahirov qonaqları salamlayıb, onları Azərbaycan Milli Kitabxanasında görməkdən şad olduğunu bildirib.

Səfir Serjan Abdıkarimov da Milli Kitabxanada olmasından məmnunluğunu ifadə edib. Diplomat Qarabağın işğaldan qurtuluşundan sonra Şuşaya səfər etdiyini və oradakı vəziyyətlə tanış olduğunu bildirib. Vurğulayıb ki, Şuşa səfərindən sonra o, “Qarabağa kitabla gedək!” kitabtoplama kampaniyasına qoşulmağı qərara alıb.

Sonra Kərim Tahirov qonaqlara Milli Kitabxananın fəaliyyəti barədə məlumat verib. Deyib ki, Azərbaycanla Qazaxıstan arasında bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əlaqələr genişlənir. O, Qazaxıstan səfirliyinin “Qarabağa kitabla gedək!” kampaniyasına qoşulmasına görə diplomata təşəkkürünü bildirib.

Direktor 30 illik işğal zamanı erməni vandalları tərəfindən Azərbaycanın yaşayış məntəqələrində 975 kitabxananın tamamilə məhv edildiyini və onların fondlarında olan 4,6 milyon nüsxədən artıq kitab fondlarının yandırıldığını diqqətə çatdırıb. Vurğulayıb ki, işğaldan azad olunan rayonların mərkəzi kitabxanaları və Azərbaycan Milli Kitabxanası adından bu vandalizm faktı ilə əlaqədar Beynəlxalq Kitabxana Assosiasiyaları Federasiyasına (İFLA) müraciət edilib.

Görüşdə eyni zamanda Milli Kitabxana ilə Qazaxıstan səfirliyinin birgə layihəsi olan qazax yazarlarının Azərbaycan dilində əsərlərinin elektron bazasının yaradılması məsələsi ilə bağlı da müzakirə aparılıb.

# Böyük Mirzənin mirası

## “Molla Nəsrəddin”in nəşrə başlamasının ildönümünə həsr olunan tədbir keçirildi

əvvəli səh. 1-də

Qeyd etdi ki, “Molla Nəsrəddin” jurnalı çoxəsrlik Azərbaycan ədəbiyyatının yeni mərhələsini formalaşdıran, ədəbi-ictimai fikri, milli düşüncə tərzini, ümumbəşəri dəyərləri böyük hadisəyə çevirən və yüksək müstəviyə qaldıraraq xalqa çatdıran monumental söz abidəsidir.

Sonra söz Mirzə Cəlil irsinin tanınmış tədqiqatçısı, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyliyə verildi. Mirzə Cəlil ocağının onun üçün çox doğma olduğunu deyən alim böyük ədibimizlə bağlı bütün tədbirlərdə səvə-səvə iştirak etdiyini və yeni nəsillərə ədəbiyyatımızın, publisistikamızın, dramaturgiyamızın bu nəhəng siması barədə məlumatlar verməyə çalışdığını bildirdi. Akademik dedi ki, satirik mətbuatımızın zirvəsini fəth edən “Molla Nəsrəddin” jurnalı mühitin və zamanın ictimai-fəlsəfi mahiyyətini açmaqla, professional şəkildə satirik publisistika, nəsr, satirik poeziya və karikaturanı inkişaf etdirməklə Azərbaycan ədəbiyyatı tarixində yeni realist ədəbi məktəbin – mollanəsrəddinçilik təliminin əsasını qoyub. Dərgi Azərbaycan milli mətbuatına, ədəbiyyat tarixinə və mədəniyyətinə töhfələr verməklə yanaşı, Şərqlə Qərbin qovşağında sivilizasiyanın təşəkkülünə və təkamülünə də güclü təsir göstərib.



İsa Həbibbəyli o dövr üçün “Molla Nəsrəddin” jurnalı qədər geniş yayılan, sevilən və iz qoyan ikinci bir mətbuat orqanının olmadığını vurğuladı. Alim həmçinin Mirzə Cəlilin xalqımızın müstəqilliyi uğrunda sonadək açıq, qəti mübarizə apardığını və bu mənada daim sevgi ilə yada salınacağını diqqətə çatdırdı.

Tədbirin bədii hissəsində Yasamal rayonu 150 saylı tam orta məktəbin şagirdlərinin ifasında “Molla Nəsrəddin” jurnalında çap olunan felyetonlar əsasında səhnəciklər göstərildi.

**Həmidə**

# “Məşəli qoruyub saxlamaq”

## Fransada Azərbaycanın mühacirət tarixi haqqında kitab nəşr olunub

Fransada tanınmış Azərbaycan diplomatı, ictimai xadim, Azərbaycan mühacirəti tarixinin araşdırıcısı Ramiz Abutalıbovun tarix elmləri doktoru Georgi Mamulya ilə birgə hazırladığı “Məşəli qoruyub saxlamaq” adlı kitab işıq üzü görüb. Kitab Fransadakı səfirliyimizin dəstəyi ilə “Maisonneuve et larose” nəşriyyat evi tərəfindən çap olunub.




1920-1940-cı illərdə Azərbaycan mühacirətinin siyasi tarixinə həsr olunan kitabda mühacirətdə olan Azərbaycan siyasi partiya və təşkilatları rəhbərlərinin həmin dövrdə Azərbaycanın və Qafqazın müstəqilliyinin bərpasına maraq göstərmiş Avropa dövlətlərinin rəsmi və qeyri-rəsmi nümayəndələri ilə münasibətləri dərindən təhlil edilib.

İndiyə qədər istifadə olunmamış arxiv sənədlərinə əsaslanan kitab bu illər ərzində Azərbaycanın siyasi mühacirət tarixinin ətraflı mənzərəsini təqdim edir. Nəşrdə 1920-1921-ci illərdə Azərbaycanın müstəqilliyinin bərpası uğrunda Tiflisdə aparılmış mübarizədən, vahid Qafqaz dövlətinin yaradılmasının ilk planlarından, 1921-1923-cü illərdə Azərbaycan diplomatik nümayəndə heyətinin Kann, Genuya və Lozanna konfransları dövründə fəaliyyətindən, 1924-1931-ci illərdə “Prometey hərəkatı” çərçivəsində Polşa-Azərbaycan əlaqələrindən, 1931-1935-ci illərdə “Qafqaz Konfederasiyasının Brüssel Paktı” və “Prometey hərəkatı”nın Qafqaz mühacirləri qruplarının yenidən təşkilindən, 1939-1940-cı illərdə Azərbaycan mühacirəti və Qərb dövlətlərinin Qafqaz layihəsindən danışılır.

# Ordubadi və “Molla Nəsrəddin” jurnalı

Aprelin 7-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon MKS-nin 4 saylı kitabxana filialında “Məmməd Səid Ordubadi və “Molla Nəsrəddin” jurnalı” adlı tədbir keçirildi. Xatırladaq ki, “Molla Nəsrəddin” jurnalının birinci sayı 1906-cı ilin 7 aprel tarixində Tiflisdə işıq üzü görüb.

Görkəmli nasir, dramaturq, şair, publisist, Əməkdar incəsənət xadimi Məmməd Səid Ordubadinin (1872-1950) 150 illiyinə həsr edilən tədbir ədibin xatirə muzeyi və Yasamal rayon MKS-nin nəzdində fəaliyyət göstərən “Səməd Vurğun poeziya ocağı”nın birgə təşkilatçılığı ilə gerçəkləşdi.

“Səməd Vurğun poeziya ocağı”nın rəhbəri, şair-publisist Zərəngiz Mansurova giriş sözündə qeyd etdi ki, Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə M.S.Ordubadi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına salınıb.




Ədibin “Molla Nəsrəddin” jurnalı ilə əməkdaşlığından danışan Z.Mansurova bildirdi ki, Ordubadi yaradıcılığının ilkin mərhələdə realizm və demokratizm istiqamətində inkişaf etməsində, dünyagörüşündəki bəzi ziddiyyətlərin aradan qalxmasında “Molla Nəsrəddin” jurnalının böyük rolu olub.

Məmməd Səid Ordubadinin Xatirə Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Lalə Abaszadə yazıçının 150 illiyi ilə əlaqədar muzey tərəfindən silsilə tədbirlər keçirildiyini diqqətə çatdırdı.

Muzeyin direktoru daha sonra “Məmməd Səid Ordubadi və “Molla Nəsrəddin” jurnalı” adlı məruzə ilə çıxış etdi. Bildirdi ki, Ordubadinin “Molla Nəsrəddin”də “Hərdəmxəyal” imzası ilə felyeton və şeirləri dərc olunub. Müəllifin ilk felyetonu jurnalın 1906-cı il 6-cı nömrəsində işıq üzü görüb. Ümumiyyətlə, Ordubadi “Molla Nəsrəddin”də 25 il iştirak edib, dərginin ən fəal üzvlərindən olub”.

Dünya Türk Ocaqları Mərkəzinin rəhbəri Aygün İbrahimova Ordubadi yaradıcılığının gənclər arasında təbliğinin əhəmiyyətini vurğuladı.

Cabir Novruz Mədəniyyət Fondunun əməkdaşı Rəsmiyyə Heybətağaqızı, publisist Nəzakət Kərimova-Əhmədova, Yasamal rayon MKS-nin 4 saylı filialının müdiri Aynur Babayeva, M.S.Ordubadinin Xatirə Muzeyinin əməkdaşı Rasimə Əhmədova və başqaları da ədibin zəngin yaradıcılığından söz açdılar.

Sonda Bakı şəhəri Telman Abbasov adına 225 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi Hökməli Baxşıyev Ordubadinin əsərlərindən nümunələr səsləndirdi.

**Nurəddin**

# Böyük Zəfərin müqəddiməsi

Regional mədəniyyət idarələrinin tabe müəssisələrində 2016-cı ilin Aprel döyüşlərinin 6-cı ildönümü münasibətilə müxtəlif tədbirlər keçirilib, yeni tariximizin şanlı səhifəsi olan bu döyüşlərdə şəhadətə yüksəlmiş qəhrəmanların xatirəsi yad olunub.



Biləsuvar Regional Mədəniyyət İdarəsi (RMİ) Salyan Rayon Tarix-Diyarşünaslıq Muzeyində Aprel döyüşləri şəhidi Rəşid Mehdiyevin anım günü ilə bağlı keçirilən tədbirdə qəhrəmanın həyat və döyüş yolundan bəhs edən videoçarx nümayiş olunub.

***

İsmayıllı RMİ Ağsu rayon Heydər Əliyev Mərkəzi, rayon Gənclər və İdman İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şamaxı bölgəsi üzrə nümayəndəliyinin birgə təşkilatçılığı və rayon İcra Hakimiyyətinin dəstəyi ilə "Aprel döyüşləri: böyük Zəfərin müqəddiməsi" mövzusunda tədbir keçirilib. Ağsu Mədəniyyət Sarayında təşkil olunan tədbirdə çıxış edənlər üçrəngli bayrağımızın Aprel zəfəri zamanı Lələtəpədə, bu gün isə Şuşada, Ağdamda, Kəlbəcərdə – Qarabağımızda dalğalandığını vurğulayıblar. Sonda "Dəmir yumruq" sənədli filmi nümayiş etdirilib.

***

Masallı RMİ N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində "Bir şəhid, bir şəhid" adlı tamaşa nümayiş olunub. Masallı, Cəlilabad və Biləsuvar xalq teatrlarının səhnə ustaları və Masallı Dövlət Regional Kolleci tələbələrinin iştirakı ilə ərsəyə gətirilən səhnə işi Aprel döyüşləri şəhidi Nurlan və Vətən Müharibəsi Qəhrəmanı, şəhid İntiqam Əsgərli qardaşlarının əziz xatirəsinə ithaf olunub. Yazıçı-publisist Nurəddin Ədiloğlunun pyesi əsasında hazırlanan tamaşanın rejissoru Cəmaləddin Əliyev, səhnə və musiqi tər-



tibatçıları Elsevər Əliyev və Ruslan Zahidovdur. Tamaşadan sonra şəhid qardaşların anası Ziba Əsgərli, Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov çıxış edərək yaradıcı kollektivlərə minnətdarlığını bildiriblər.

***

Sumqayıt RMİ Zəngilan rayon nümayəndəliyi tərəfindən Aprel döyüşləri şəhidi Müşfiq Orucovun ailəsi ziyarət olunub. Əməkdaşlar ailənin qayğıları ilə maraqlanıblar.

***



Lənkəran RMİ Lənkəran şəhər Mədəniyyət Mərkəzində Vətən müharibəsi şəhidi Tural Hümmətovun doğum günü ilə əlaqədar anım tədbiri keçirilib. RMİ-nin rəisi Şahin Şahbazov, idarənin tabeliyində fəaliyyət göstərən müəssisələrin əməkdaşları, şəhidin ailə üzvlərinin və digər qonaqların iştirak etdiyi tədbirdə Tural Hümmətov haqqında Mədəniyyət Nazirliyinin "Səhnədən səngərə" layihəsi çərçivəsində hazırlanan videoçarx da nümayiş olunub.

***

Xaçmaz RMİ Qusar rayon Mərkəzi Kitabxanasında "Aprel döyüşləri böyük Zəfərin başlanğıcıdır" mövzusunda tədbir keçirilib. Çıxışlarda 2016-cı ilin Aprel zəfərinin əhəmiyyəti vurğulanıb, Qarabağın işğaldan qurtuluşunun uğurlu addımı kimi dəyərləndirilib.

***

Şəmkir RMİ-nin əhatə etdiyi Gədəbəy rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Aprel döyüşlərinə həsr edilmiş sənədli film nümayiş olunub.

***

Ağcabədi RMİ-nin tabeliyindəki Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində Aprel döyüşləri şəhidi Sarvan Mehralıyevin xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib.

***

Ağdaş RMİ Göyçay rayon Mərkəzi Kitabxanasında "Teymur Qasımov, səni unutmadıq, unutmarıq" adlı tədbir keçirilib. Tədbirdə çıxış edən Aprel döyüşləri şəhidi Teymur Qasımovun atası Mikayıl Qasımov oğlunun döyüş yolundan söhbət açıb.

***



Sabirabad RMİ Hacıqabul rayon Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri - zəfərin başlanğıcı" adlı tədbir təşkil edilib. Tədbirdə 4 günlük Aprel döyüşlərindən bəhs edən "Vətən uğrunda" sənədli filmi nümayiş olunub.

Şirvan Dövlət Rəsm Qalereyası və Şirvan şəhər Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Qələbəyə ilk addım – böyük Zəfərin başlanğıcı" adlı sərgi keçirilib.

***

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində keçirilən "Aprel döyüşləri – zəfərə doğru" mövzusunda tədbirdə Aprel döyüşlərinə həsr edilmiş videoçarx nümayiş olunub.

***



Şəki RMİ-nin tabeliyindəki Balakən rayon Hənifə kənd Diyarşünaslıq evində "Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir" mövzusunda tədbir keçirilib. Diyarşünaslıq evinin direktoru Nargilə Bayramova və digər qonaqların çıxışları dinlənilib.

***

Gəncə RMİ Gəncə şəhər MKS-nin Uşaq şöbəsi İkinci Qarabağ müharibəsi şəhidi Elşən Dünyamalıyevin doğum günü ilə əlaqədar olaraq "Vətən üçün ölənlər əbədi, ölməz olur" başlıqlı tədbir təşkil edib.

RMİ-nin əhatə etdiyi Naftalan şəhər Heydər Əliyev Mərkəzində "Aprel döyüşləri tariximizin şanlı səhifələrindəndir" adlı tədbir təşkil olunub. Naftalan Şəhər Təhsil Şöbəsinin dəstəyi ilə keçirilən tədbirdə mərkəzin direktoru Faiqə Ağayeva çıxış edib.

**Hazırladı: Nürəddin**

# Sumqayıt teatrında rejissorun 60 illiyi qeyd olunub



Sumqayıt Dövlət Dram Teatrında Əməkdar artist, teatrın quruluşçu rejissoru Namis Şirməmmədovun 60 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

Teatrın direktoru, Əməkdar artist Mübariz Həmidov yubilyarı təbrik edib, onun yaradıcılıq fəaliyyətindən danışıb.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin məsul nümayəndəsi Fərman Kazımov Namis Şirməmmədovun ümumşəhər tədbirlərinin ssenari müəllifi və quruluşçu rejissoru kimi uğurlu layihələrə imza atdığını bildirib, ona İcra Hakimiyyətinin fəxri fərmanını təqdim edib.

Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev də yubilyarın fəaliyyətindən söz açıb, rejissora regional idarənin fəxri fərmanını təqdim edib, xoş arzularını bildirib.

Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Sumqayıt şəhər komitəsinin sədri Şahin Şəfiyev və digər çıxış edənlər rejissora təbriklərini çatdırıblar.

Sonda teatrın direktoru Mübariz Həmidov tərəfindən Azərbaycan Teatr Xadimləri İttifaqının fəxri fərmanı yubilyara təqdim olunub.

# Məktəblilərin Qəbələ qoruğuna ekskursiyaları



Qəbələ Dövlət Tarix-Bədii Qoruğunda rayon məktəbliləri üçün mütəmadi olaraq ekskursiyalar təşkil edilir. Qoruğun direktoru Zahir Kərimov bildirib ki, növbəti ekskursiyada Çarxana kənd tam orta məktəbinin müəllim və şagirdləri iştirak ediblər.

Ekskursiya zamanı məktəblilər əvvəlcə Səlbir və Qala ərazilərində aparılmış arxeoloji qazıntı sahələri ilə yaxından tanış olublar. Onlara burada aparılmış arxeoloji qazıntılar, aşkar olunan tarixi əhəmiyyət kəsb edən tapıntılar barədə ətraflı məlumat verilib.

Sonra məktəblilər Qəbələ Arxeoloji Mərkəzinin sərgi salonlarında nümayiş etdirilən tarixi eksponatlarla, Qəbələnin tarixi, etnoqrafiyası və folkloruna aid kitablar toplusu ilə tanış olublar.

**Hazırladı: N.Məmmədli**

# "Beynəlxalq cizgi filmləri günü" münasibətilə

Aprelin 6-sı dünyanın bir çox ölkələrində "Beynəlxalq cizgi filmləri günü" kimi qeyd edilir. 1906-cı il aprelin 6-da Con Stüart Blekton və Albert Smit ABŞ-ın Kinoteatr Birliyi ilə "Gülməli üzlərin gülməli mərhələləri" adlı film çəkiblər. Bu, animasiya tarixində ilk cizgi filmi hesab edilir. Əlamətdar gün isə 96 il sonra – 2002-ci ildə Beynəlxalq Animasiya Filmləri Dərnəyi tərəfindən təsis olunub.

İsmayıllı RMİ İsmayıllı rayon MKS-nin Uşaq şöbəsinin təşkilatçılığı ilə əlamətdar gün münasibətilə açıq havada sərgi təşkil edilib.

Şamaxı rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə isə uşaqlar "Göyçək Fatma" və "Tıq-tıq xanım" cizgi filmlərinin personajları haqqında







müzakirə aparıblar.

Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin S.Vurğun adına Mərkəzi Kitabxanasının Uşaq şöbəsi 45 nömrəli uşaq bağçasında "Danışır nağıllar, göstərir ekran!" adlı "cizgi saatı" keçirib. Tədbirdə uşaq yazıçısı Çinarə Köçərlinin "Marya işıltısı" kitabı əsasında hazırlanan cizgi filmi nümayiş olunub.

# Regional mədəniyyət idarəsi "İstedad" baxış-müsabiqəsi elan edib

Kürdəmir RMİ tərəfindən ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü ilə əlaqədar "İstedad" baxış-müsabiqəsi elan edilib.

Baxış-müsabiqə müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin gənclər siyasətinin, gənc nəslə qayğının bu gün də davam etdiyini nümayiş etdirmək, gənclərin istedad və bacarıqlarının üzə çıxarılması, mədəniyyət müəssisələrində bu işin daha da canlandırılması məqsədi daşıyır.

Müsabiqədə RMİ-nin əhatə etdiyi Kürdəmir, İmişli, Beyləqan, Füzuli və Xocavənd rayonlarından bədii qiraət, musiqi və rəsm nominasiyaları üzrə 8-30 arası uşaq və gənclər, mədəniyyət müəssisələrində fəaliyyət göstərən bədii özfəaliyyət kollektivlərinin üzvləri və fərdi şəkildə iştirak etmək istəyənlər müraciət edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyənlər aprelin 1-dən 20-dək regional idarənin əhatə etdiyi rayonlardakı nümayəndəliklərə elektron poçt və ya həmin müəssisələrin "Facebook" səhifələrinə, eləcə də birbaşa RMİ-yə müraciət edərək qeydiyyatdan keçməlidirlər.

Müsabiqənin I (seçim) turu 25-30 aprel tarixində rayon nümayəndəlikləri tərəfindən keçiriləcək. II tur (yekun) mayın 4-də İmişli rayon Heydər Əliyev Mərkəzində təşkil olunacaq və qaliblər həmin gün elan ediləcək. Qaliblər mayın 10-da Kürdəmir rayonunda keçiriləcək ümumrayon tədbirində mükafatlandırılacaq.

# Şuşada bir ilk – yamac paraşütündən uçuş

"Şuşa İli" çərçivəsində Şuşa şəhərində ilk dəfə yamac paraşütündən (paraplan) uçuş həyata keçirilib. Bu barədə videonu Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi İdarə Heyətinin sədri Məftun Abbasov sosial şəbəkə hesabında paylaşıb.



Uçuş şəhərin ən yüksək nöqtələrindən biri sayılan Qızıl qaya massivindən (Teleqüllə ərazisi), 1400 metr hündürlükdən yerinə yetirilib.

Professional yamac paraşütü pilotu olan Fərid Məmmədov tərəfindən reallaşdırılan uçuş zamanı Şuşa səmasını Azərbaycan bayrağı bəzəyib. Xatırladaq ki, dünya paraplan xəritəsində yamac paraşütü üçün Qarabağda yeganə uçuş məkanı Şuşa şəhəri göstərilib.

Uçuş gələcəkdə ekoturizm məkanına çevrilməsi nəzərdə tutulan Daşaltı kəndi istiqamətində olub.

# Qarabağda ekoturizm imkanları

Füzuli rayonunun Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzində "Ekoloji İnformasiya" İctimai Birliyi təşkilatçılığı ilə Qarabağ iqtisadi rayonunda ekoturizm mövzusunda seminar təşkil edilib.

İctimai birliyin sədri Musa Muradlı Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə həyata keçirilən layihə haqqında məlumat verib. Bildirib ki, nadir təbiət mənzərələri, səfalı yerləri, təmiz havası, mineral tərkibli şirin suları ilə zəngin olan Qarabağın böyük turizm potensialı var. Regionda ekoturizmin inkişaf etdirilməsi üçün də geniş imkanlar mövcuddur.

Vurğulanıb ki, Prezident İlham Əliyevin qarşıya qoyduğu hədəflərdən biri də Qarabağ bölgəsində turizmin inkişafına nail olmaqdır və bu istiqamətdə müvafiq addımlar atılır. Suqovuşanda (Tərtər rayonu) turizm kompleksinin bünövrəsinin qoyulması buna nümunədir.

# Azərbaycan-Avstriya beynəlxalq turizm proqramı: 15 illik uğur

Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) təşkilatçılığı ilə "Azərbaycan-Avstriya beynəlxalq turizm proqramı: 15 illik uğur. ATMU və İMC Krems qlobal təhsil tərəfdaşlığı" adlı tədbir keçirilib.

Tədbirdə Dövlət Turizm Agentliyinin rəsmiləri, ölkəmizin ali təhsil müəssisələrinin rektorları, proqram çərçivəsində təhsil alan tələbələr, məzunlar iştirak ediblər.

ATMU-nun rektoru İlham Mədətov beynəlxalq proqramın əhəmiyyəti və əsas hədəflərindən ətraflı bəhs edib. Dövlət Turizm Agentliyinin Aparat rəhbəri Kənan Qasımov turizm sənayesinin ixtisaslı kadr potensialı ilə təmin edilməsində beynəlxalq təhsil layihələrinin önəmli olduğunu diqqətə çatdırıb.

Avstriyanın İMC Krems Tətbiqi Elmlər Universitetinin icraçı direktoru Karl Ennsfellnerin məruzəsində proqramın əsas prioritetləri və tarixindən bəhs olunub.

Sonda Azərbaycan-Avstriya beynəlxalq turizm proqramının 15 illiyinə həsr olunmuş videoçarx nümayiş olunub.

Qeyd edək ki, ölkəmizin ali təhsil tarixində ilk dəfə olaraq ATMU 2007-ci ildən İMC Krems Tətbiqi Elmlər Universiteti ilə bakalavriat və magistratura səviyyələrində ikili diplom proqramlarını həyata keçirir.

# Qarabağ atlarının auksion satışı keçiriləcək

Azərbaycanda ilk dəfə "Aqroservis" Açıq Səhmdar Cəmiyyətinin tabeliyindəki Qobustan Heyvandarlıq Nümayiş Kompleksində Qarabağ cins atlarının auksion vasitəsilə satışı həyata keçiriləcək.

Kənd Təsərrüfatı Nazirliyindən bildiriblər ki, aprelin 15-də keçiriləcək auksionda həm yerli, həm də xarici təsərrüfat sahibləri, sahibkarlar iştirak edə bilərlər.



Hərraca xüsusi seçilmiş atlar çıxarılacaq və satış auksion formatına uyğun olaraq həyata keçiriləcək.

Bununla yanaşı, Qarabağ atları haqqında məlumat veriləcək. Hərracda satılan atlar sığorta şirkəti tərəfindən sığortalanacaq.

Qarabağ atları yüksək qaçış sürəti ilə seçilir. Bu atların əsas yeriş forması çaparaq yerişdir, bütün hərəkətləri çevikdir. Qarabağ atı hündür, çevik, hərəkəti səlis, bədən quruluşu möhkəmdir. Minik atıdır. Qarabağ atı daha dözümlüdür və yemə qarşı tələbkar deyil.

Hərracda iştirak üçün 1659 nömrəsi ilə satış mərkəzinə müraciət etmək olar.

# Cavidin "İblis"i Türkiyə Dövlət Teatrlarının repertuarına salınıb

Görkəmli Azərbaycan dramaturqu Hüseyn Cavidin "İblis" əsərinin tamaşası Türkiyə Dövlət Teatrlarının repertuarına daxil edilib.

Bununla bağlı tamaşanın quruluş müəllifi, Azərbaycanın Əməkdar incəsənət xadimi, İstanbul Şəhər Teatrlarının direktor müavini, aktyor-rejissor Məlahət Abbasova məlumat verib.

2019-cu ildə İstanbulda səhnəyə qoyulan "İblis"in böyük maraqla qarşılandığını xatırladan Məlahət Abbasova tamaşanın Türkiyənin Dövlət Teatrlarının repertuarına daxil olunması ilə bağlı müraciət etdiklərini bildirib: "Hüseyn Cavid kimi böyük dramaturqun əsərini tamaşaçıya layiqli şəkildə təqdim etmək böyük məsuliyyət tələb edir. Bu işi uğurla başa çatdırdığım üçün çox sevincliyəm. Bir əsərin Türkiyədə səhnələşdirilməsi üçün onun repertuara daxil edilməsi mütləqdir. Amma bu da çox çətin başa gələn işdir. Çünki hər toplantıya yüzlərlə əsər təqdim edilir və onların içindən bir-ikisi seçilir. Mən "İblis"in İstanbul Şəhər Teatrlarında da səhnələşdirilməsi üçün tamaşanı əvvəlcə Bədii Şuranın müzakirəsinə təqdim etdim. İstanbul teatrlarının repertuarına daxil olduqdan sonra əsəri səhnəyə qoya bildik".



Məlahət Abbasova diqqətə çatdırıb ki, "İblis" tamaşası İstanbulda səhnəyə qoyularkən ilk dəfə olaraq "Maping" 3D işıq cihazlarından istifadə edilib. Kino effekti ilə seçilən bu qurğu tamaşaya xüsusi görkəm verir. "Səfirliyimizin də dəstəyi ilə əsər Türkiyə Dövlət Teatrlarına təqdim edildi. Çox sayda əsərin içindən "İblis" əsərinin repertuara salınması azərbaycanlı olaraq mənim üçün qürurverici hissdir. Qarşıdan gələn aylarda bu tamaşanın məşqlərinə başlamağı planlaşdırırıq. İnanıram ki, "İblis"i Türkiyənin hər bölgəsində teatrsevərlərə təqdim edə biləcəyik", – deyə Məlahət Abbasova bildirib.

Səhnə əsərinin Türkiyənin Dövlət Teatrlarının repertuarına daxil edilməsi ilə bağlı qardaş ölkənin Mədəniyyət və Turizm Nazirliyinin Dövlət Teatrları Baş İdarəsi tərəfindən Məlahət Abbasovaya ünvanlanan məktubda deyilir: "Hüseyn Cavidin əsəri əsasında hazırlanan, Hilmi Zəfər Şahin ilə birgə türk dilinə tərcümə etdiyiniz "İblis" tamaşası dramaturq məruzələri ilə birlikdə baxılıb və Bədii Şuranın iclasında müzakirə edilib. Bədii Şura səs çoxluğu ilə tamaşanın Dövlət Teatrlarının ümumi repertuar fonduna daxil olunmasını qəbul edib. Türkiyənin Dövlət Teatrlarının ümumi repertuarına verdiyiniz töhfəyə görə sizə təşəkkür edir və uğurlarınızın davamlı olmasını diləyirik".

Qeyd edək ki, Hüseyn Cavidin "İblis" əsəri 2019-cu ilin aprelində İstanbulun Harbiyə-Muhsin Ərtuğrul səhnəsində tamaşaya qoyulub. İstanbul Şəhər Teatrlarının və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilati dəstəyi ilə hazırlanan tamaşanın ilk aktyor heyətində türkiyəli aktyorlardan Rıdvan Çələbi, Əmrə Narcı, İskəndər Bağcılar, Şenay Bağ, Nurseli Tırışkan və Çağatay Palabıyık çıxış ediblər.

# Tofiq Quliyevin 105 illiyi münasibətilə konsert keçiriləcək

Aprelin 29-da Heydər Əliyev Sarayında görkəmli Azərbaycan bəstəkarı Tofiq Quliyevin (1917-2000) 105 illiyinə həsr olunan "Bizi yaşadan nəğmələr" adlı konsert proqramı təqdim ediləcək.




Proqramda Xalq artistləri Brilliant Dadaşova, Ənvər Sadıqov, Azər Zeynalov, İlqar Muradov, Gülyanaq və Gülyaz Məmmədovalar, Murad Hüseynov, Əməkdar artistlər Anar Şuşalı, Aygün Bəylər, Zamiq Hüseynov, Elton Hüseynəliyev, İnarə Babayeva, həmçinin Zabitə Alıyeva, Mirələm Mirəlamov, Kamilə Babayeva, "Qaya" Dövlət Ansamblı, Akademik Musiqili Teatrın orkestri, xoru, balet truppası və solistləri çıxış edəcək.

Tofiq Quliyev Azərbaycan estrada musiqisinin yaradıcılarındandır. Görkəmli bəstəkarın əsərləri hələ neçə-neçə qərinələr sonra da insanlar tərəfindən böyük sevgi və maraqla dinləniləcək.

# Akademik Opera və Balet Teatrında "Fiqaronun toyu" olacaq

Aprelin 9-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında V.A.Motsartın "Fiqaronun toyu" operasının tamaşası keçiriləcək.

"Fiqaronun toyu" operası Motsartın libretto müəllifi Lorenso da Ponte ilə ilk birgə işidir və məhz bu opera bəstəkara böyük şöhrət gətirib. Bəstəkar 1785-ci ilin qışında opera üzərində işə başlamış və artıq beş ay sonra – 1786-cı il mayın 1-də Vyanada operanın ilk tamaşası baş tutmuşdu. Elə ilk tamaşadan opera bəstəkara böyük uğur gətirdi və tamaşaçılar tərəfindən bəyənildi.

"Fiqaronun toyu" əyləncəli səhnələr, sevgi intriqaları ilə zəngin olan komik operadır. Da Pontenin librettosu inandırıcılığı, Motsartın musiqisi isə zərifliyi ilə tamaşaçıları heyran edir.

Akademik Opera və Balet Teatrında təqdim olunacaq tamaşada azərbaycanlı opera sənətçiləri ilə yanaşı, Belarus Milli Akademik Böyük Opera və Balet Teatrının solisti, Belarusun Xalq artisti Vladimir Qromov (Qraf Almaviva) və Sankt-Peterburq Mariinski Teatrının solisti, vokalçıların beynəlxalq müsabiqələrinin laureatı Məhərrəm Hüseynov (Fiqaro) çıxış edəcəklər. Teatrın aparıcı solistləri – Əməkdar artistlər Fəridə Məmmədova Qrafinya, İnarə Babayeva Suzanna, İlham Nəzərov Kerubino, Tural Ağasıyev Bazilio, Xalq artistləri Əli Əsgərov Antonio, Əkrəm Poladov Bartolo partiyalarını ifa edəcəklər.

Tamaşanı Əməkdar artist, dirijorların beynəlxalq müsabiqələrinin laureatı Əyyub Quliyev idarə edəcək.

# "Azərbaycanım" rəsm müsabiqəsinə əsər qəbulu davam edir

Yeniyetmə və gənclərin yaradıcılığını stimullaşdırmaq, əhatə olunduqları mədəni mühitə yanaşma tərzinin təkmilləşdirmək, onların bədii zövqünü inkişaf etdirmək, Azərbaycan əsgərinin qəhrəmanlığını, işğaldan azad olunmuş ərazilərimizin mədəni irsinin daha geniş təbliği məqsədilə "Azərbaycanım" V Respublika Uşaq Rəsm Festivalı keçirilir. Eyni zamanda festival çərçivəsində müsabiqə elan olunub.

Ənənəvi festival Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC, Xətai Rayon İcra Hakimiyyəti, Azərbaycan Rəssamlar İttifaqı, Naxçıvan Rəssamlar Birliyinin dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə gerçəkləşir.

Yaşı 21-ə qədər olan istedadlı şəxslər mayın 2-dək Xətai Sənət Mərkəzinin "Facebook" qrupunda təqdim etdiyi əsərin fotosu, adı, müəllifin adı, soyadı, təvəllüdü, təhsil aldığı məktəbi və əlaqə nömrəsini yerləşdirməklə müsabiqəyə qatıla bilər.

Əlavə məlumat almaq üçün 051-310-74-01 "WhatsApp" nömrəsi ilə əlaqə saxlamaq olar.

Müsabiqənin yekun sərgisi Xətai Sənət Mərkəzində keçiriləcək. Əsəri sərgidə nümayiş olunan müəlliflər sertifikatla və fəal tədris mərkəzləri (dərnək, incəsənət məktəbi və s.) təşəkkürnamə ilə təltif olunacaqlar. Hər yaş qrupu üzrə ən yaxşı 10 əsərin müəllifi festivala dəvət ediləcək. Festival iştirakçıları diplom və hədiyyələrlə mükafatlandırılacaq.

# Bu dəfə səhnəyə "Psix" çıxır

Aprelin 29-da Azərbaycan Dövlət Akademik Musiqili Teatrında dünya şöhrətli ispan yazıçısı Migel de Servantesin "Don Kixot" romanının motivləri əsasında hazırlanan "Psix" tamaşasının premyerası olacaq. Tamaşada dahi bəstəkar, SSRİ Xalq artisti Qara Qarayevin "Don Kixot" simfonik qravürlərindən istifadə edilib.



Tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru Ər-Toğrul, musiqi rəhbəri Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, konsertmeysteri Kamil Həsənov, rejissor assistenti Zaur Əliyevdir.

Səhnə əsərində Don Kixot obrazını Xalq artisti Pərviz Məmmədrzayev ifa edəcək. Teatrın gənc və istedadlı aktyorları Nicat Əli Sanço Pansa, Gültac Əlili Dulsineya, Zaur Əliyev Xidmətçi obrazlarında teatrsevərlərin qarşısına çıxacaqlar.

# "Bir gecənin nağılı"

Sumqayıt Dövlət Dram Teatrında daha yeni əsərin oxu məşqlərinə başlanılıb. Bu, Rövşən Ağayevin qələmə aldığı "Bir gecənin nağılı" pyesidir.

İki gəncin təsadüfi və ülvi məhəbbətini mövzu kimi götürən dramaturji materiala Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının rejissoru Gülnar Hacıyeva quruluş verəcək. Tamaşanın quruluşçu rəssamı Elşən Sərxanoğlu, musiqi tərtibatçısı Zaur Rəşidovdur.

Teatr rəhbərliyi bu dəfə də gənc aktyorların özlərini təsdiq etməsi üçün şərait yaradıb. Stolarxası məşqləri başlanan birhissəli tamaşada əsas rolları Elay Xasıyev və Məryəm Hüseynli oynayacaqlar.

Yeni tamaşanın may ayının sonunda tamaşaçıların ixtiyarına verilməsi nəzərdə tutulur.

# Köhnə Bakı – fırça yaddaşında

Aprelin 8-də AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində həkim-rəssam Rauf Canıbəyovun "Köhnə Bakı – fırça yaddaşında" adlı sərgisinin açılışı olacaq.

Muzeydən verilən məlumata görə, bir neçə sənət sahəsi ilə məşğul olan R.Canıbəyovun əsasən yağlı boya, karandaş və rəqəmsal qrafika ilə işlədiyi əsərləri böyük maraq doğurur. Rəssam əsərlərinin əksəriyyətini köhnə Bakıya, onun sakit küçələrinə, məhəllələrinə, milli memarlığına, mehriban sakinlərinin məişətinə həsr edib.

# Maşın hissələrindən tar...

## "Tullantıdan sənətə" muzeyini ziyarət etmisinizmi?




Paytaxtımızda yerləşən və sırf mədəniyyət profilli olmasa da, əslində, tarixi-mədəni və elmi irs məkanı sayılan muzeylər haqqında oxuculara məlumat verməyə davam edirik. Bu dəfə fotoqrafımızla yolumuzu "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin (ASC) tabeliyində fəaliyyət göstərən "Tullantıdan sənətə" muzeyindən saldıq.

Bizi "Təmiz Şəhər" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları Nigar Vəkilova və Sevinc Abdullayeva qarşıladı. Bələdçi xanımların bir ildə insanların təbiətə atdığı tullantıların miqdarı ilə bağlı statistik məlumatı, sözün həqiqi mənasında, insanı dəhşətə gətirir. Müsahiblərimiz bildirir ki, hər il 2 milyard tondan çox tullantı təbiətə atılır. Bu tullantılar arasında plastik qablar, sellofanlar, batareyalar və digər təbiət üçün həddən artıq təhlükəli olanlar da var. Onlar nəinki bu günümüzü, eləcə də 100, 300 il sonrakı həyatımızı da təhdid altına salır. Hazırda dünyanın inkişaf etmiş ölkələrində bu acınacaqlı vəziyyətlə bağlı bir sıra addımlar atılır. Tullantısız sənayenin genişləndirilməsi diqqətdə saxlanılır, təkrar istehsala önəm verilir. Ölkəmizdə də artıq bu istiqamətdə müəyyən işlər görülür.

"Tullantıdan sənətə" muzeyi 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə "Təmiz Şəhər" ASC tərəfindən "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yaradılıb. Muzeyin yaradılmasında məqsəd insanlara tullantıların istifadəyə yararlı məhsullara çevrilməsi ideyasını təlqin etməkdir.

### "Nəsiminin yolu"

Muzeyin girəcəyində ilk olaraq "Zirehli" adı verilmiş at kompozisiyası diqqətimizi çəkir. Dəmirdən hazırlanmış kompozisiyanın müəllifi Məmməd Rəşidovdur.

Məlum olduğu kimi, 2019-cu ildə dövlət başçısının müvafiq sərəncamı ilə ölkəmizdə "Nəsimi İli" elan olunmuşdu. Əlamətdar il münasibətilə muzeydə dahi şairə həsr olunan xüsusi guşə yaradılıb. Guşədə yer alan "Nəsimi" portreti ilk baxışdan diqqəti cəlb edir. Şərab şüşələrinin tıxaclarından hazırlanmış portretin müəllifi yaponiyalı sənətkar Tomonori Kubodur.

Həmin guşədə dahi şairlə bağlı daha bir eksponata diqqət kəsilirik. Çinarə Baxşıyevanın dəmir, güzgü parçaları və plastik əşyalardan yaratdığı "Nəsiminin yolu" ağacı hürufi şairin obrazını əks etdirir. Müəllif əsərdə tamaşaçıya iki əks vəziyyəti simvolik şəkildə göstərməyə çalışıb. Ağacın rəngli tərəfi Nəsiminin həyat və yaradıcılığına, solğun tərəfi isə onun edam olunmasına işarədir.

### Qara Qarayevin portreti

Daha bir maraqlı eksponatın qarşısındayıq. ABŞ-dan olan sənətkar Tess Feliksin plastik əşyalardan hazırladığı dahi bəstəkar Qara Qarayevin portretinə tamaşa edirik. Nigar xanım vurğulayır ki, amerikalı sənətkarın plastik əşyalardan hazırladığı portretlər insan ruhunun təsviridir. Bu fiqurlar sanki ciddi bir problemə – okeanın təhlükəli vəziyyəti və ümumi dəniz həyatı problemlərinə maraqlı bir cavab formasıdır. Bəşəriyyət və plastik materiallar arasında yaradılmış ziddiyyət göstərir ki, biz bu vəhdətin bir hissəsiyik və bu problemə görə özümüz cavabdehlik daşıyırıq...









### Sənətdən tullantıya

Muzeyin maraqlı eksponatlarından biri də Elvin Nəbizadənin yararsız işıq lampalarından hazırladığı "Qala qoyunu" adlı əl işidir. Heyətimizi işıqsız təsəvvür etmək çətindir. Heyvanlar da insan həyatında böyük rol oynayır. Hələ ibtidai insanlar heyvanların ətindən, dərisindən, sümüyündən istifadə ediblər. Heyvanlar həm də təbiətə gözəllik verən, onu zəngin estetik zövq mənbəyinə çevirən canlılardır. İnsan həyatında işıqlanmanın (mənəvi, daxili, praktiki, təbii işıqlanma) və heyvanların əhəmiyyətli rolunu nəzərə alan Elvin Nəbizadə öz ideyasını məhz işıq və qoyun üzərində cəmləşdirib.

Nəzrin Musayevanın siqaret kötüklərindən hazırladığı "Bumeranq" əsəri öz cəlbediciliyi ilə seçilir. Kollaj stilistikasına aid olan əsərin konsepti bundan ibarətdir ki, təbiətə vurduğumuz zərər bumeranq şəklində yenidən bizə qayıdır. Tural Möyüfov tərəfindən yaradılan "Sənətdən tullantıya" əsərinin əsas ideyası bəzi sənət nümunələrinin diqqətdən kənar qalması, onun zaman-zaman sıradan çıxmasına və tullantıya çevrilməsinə səbəb olmasıdır.



Tullantılardan yığılan bu kompozisiya sənət əsərindən əmələ gələn zibil axarı və həmçinin ələ qə pozulmadan əks istiqamətdə olan hərəkət əsasında qurulub.

Muzeyi gəzdikcə tullantılardan hazırlanan, insanı sənət və həyat, bəşəriyyətin gələcəyi ilə bağlı düşüncələrə qərq edən nümunələrə baxıb həm də narahatlıq keçirirsən. Necə narahat olmayasan; bir tərəfdən insanın təbiətə qənim kəsilib onu viranəyə çevirdiyini görür, digər tərəfdən onun sənət adına möcüzələr yaratmağına heyran qalırsan. Zibilliyin girdabına düşən ölmüş adam, təkər parçalarından velosiped, plastik tullantılardan dinozavr, dəmir qırıqlarından Simurq quşu, sərinkeş detallarından qurbağa, taxtadan atlar, plastik qaşıq, çəngəl və bıçaqlardan balıq, avtomobil hissələrindən milli musiqi alətimiz tar, daha nələr, nələr...

Nigar xanım bildirir ki, muzey yerli sənətkarlarla yanaşı, dünyanın müxtəlif ölkələrindən olan əl işi ustalarının əsərlərinə də ev sahibliyi edir. Hazırda muzeydə 44 ölkənin 190 sənətkarının 180-ə yaxın əl işi var.

***

Muzey həftənin bütün günləri saat 10:00-dan 17:00-dək fəaliyyət göstərir. Ziyarətçilər ödənişsiz olaraq burada nümayiş olunan eksponatlara baxa bilərlər.

Hər gün rastlaşıb narahat olduğumuz bir sıra tullantılardan hazırlanmış sənət əsərlərini görmək istəyirsinizsə, paytaxtın Xəzər rayonunun Qala qəsəbəsindəki "Tullantıdan sənətə" muzeyini ziyarət edin.

**N.Məmmədli**

№27 (1900)
8 aprel 2022
www.medeniyyet.az

# Ömrünü teatra bağlayıb, səhnədən incik gedən sənətkar

Azərbaycan kinosunda axund, molla obrazları deyilincə ilk ağıla gələn mərhum sənətkar, Əməkdar artist Hacıməmməd Qafqazlı (1898-1982) olur. Uzun illər Akademik Milli Dram Teatrında çalışan aktyoru müasir tamaşaçı daha çox filmlərdəki rollarından tanıyır.

Hacıməmməd Qafqazlının qızı, filologiya üzrə fəlsəfə doktoru Nəzakət Qafqazlı ilə söhbətimizdə aktyorun ömür və sənət yoluna nəzər saldıq.

*– Nəzakət xanım, söhbətimizə atanızın uşaqlıq, gənclik dövrü ilə başlayaq...*

– Hacıməmməd Qafqazlı 1898-ci il martın 24-də Lənkəranda anadan olub. Bəri başdan onu da deyim ki, atam haqqında yazılan bir çox yazılarda, "Vikipediya"da da martın 22-də doğulduğu qeyd edilib, amma doğum tarixi 24 martdır. Atamın babası Əliqulu bəy Lənkəranın tanınmış zadəganlarından, Qulubəyzadələr nəslindən olub. Əliqulu bəy oğlu Ələkbəri həkim kimi görmək istəyirdi. Ona görə də oğlunu, yəni babamı Tehranda oxutdurur. O illərdə babam Ələkbərlə Abbas Səhhət bir yerdə həkimlik təhsili alırlar. Təhsillərini bitirdikdən sonra babam Lənkərana, Abbas Səhhət isə Şamaxıya qayıdır. Babam Lənkəranda həkim kimi işləməklə yanaşı, "Səburi" təxəllüsü ilə şeirlər yazıb. Lənkəranda "Fövcül-füsəha" ədəbi məclisinin fəal üzvlərindən olub.

Babamın övladları olub, amma bir müddət sonra vəfat ediblər. Yeganə sağ-salamat qalan atam olub. Hacıməmməd Ələkbər oğlu Qulubəyzadə. Sovet dövründə bəy nəslindən olanlara təqiblər başlayanda Qulubəyzadə soyadı Quliyev olub. Atam balaca olanda anası rəhmətə gedir. Babam Ələkbər yeganə oğluna Lənkəranda mollaxanadan başqa təhsil imkanı yarada bilməyəcəyini görərək Bakıya köçür. Bakıda ikinci dəfə ailə həyatı qurur. Atamın 13 yaşı olanda babam rəhmətə gedir. Körpə yaşında anasız qalan atam, bu dəfə də atasız qalır. Analıqla birlikdə yaşayır. Get-gedə dolanışıq çətinləşir. Analıq da atamı yola vermir. Deyir ki, evin böyüyüsən, evi, uşaqları dolandırmaq lazımdır. Atam 14 yaşından Orucovların mətbəəsində işə başlayır.

Orucov qardaşlarının mətbəəsi indiki İstiqlaliyyət küçəsindəki Əlyazmalar İnstitutunun zirzəmisində yerləşib. Atam mətbəədə əvvəlcə şagird, sonra isə mürəttib kimi çalışmağa başlayıb. Mürəttib işlədiyi dövrdə mətbəədə Seyid Hüseyn, Əliqulu Qəmküsar, Nəriman Nərimanovla tanış olub. Nərimanovla görüşünü həmişə xoş xatirə ilə yad edərdi. Deməli, "Bahadır və Sona" əsəri çap ediləndə Abuzər Orucov ilk nüsxələri atama verib deyir ki, apar bunu doktora ver. Atam Nərimanovun evində kitabın ilk nüsxələrini ona təqdim edib. O da kitabın bir nüsxəsini imzalayaraq atama bağışlayıb. Sonralar atam Nəriman Nərimanovla tanışlığının şərəfinə, övladlarına Bahadır və Sona adını qoymuşdu. Biz ailədə beş uşaq olmuşuq: Bahadır, Adil, Sona, Nəzakət, Ələkbər.

*– Atanız sənətə necə gəlib?*

– Babam teatr həvəskarı olub. Atamı tez-tez teatra aparармış. Atam danışırdı ki, ilk dəfə Hüseyn Ərəblinskini "Ağa Məhəmməd şah Qacar" obrazında səhnədə görüb. O tamaşada Tiflisin yandırılma səhnəsi var. Ərəblinskinin "Yan, yan, ey Qafqaz" monoloqunu eşidən atam onun timsalında səhnəyə, sənətə vurulub. Uşaqlıq dövründən səhnənin sehrinə düşüb.

Atamın mətbəədə çalışdığı dövrdə ciyərlərində problem yaranıb. Həkimlər ona məsləhət görüblər ki, təmiz havada olmalı, piyada gəzməlisən. Atam da Maştağada fəhlə-kəndli klubu yaradır və klubun nəzdində dram dərnəyi təşkil edir. Hər gün Sabunçu vağzalından piyada Maştağaya gedirmiş. O vaxtlar Sabunçu vağzalından elektrik qatarı təzə hərəkət edirmiş. Atam da elektrik qatarından düşüb Maştağaya qədər yolu piyada qət edərmiş. Maştağadakı dram dərnəyində Ə.Haqverdiyevin, N.Vəzirovun əsərlərini tamaşaya qoyub. Atamın xətrini kənd camaatı çox istəyib. Atam ərəb dilini bildiyinə görə islam adət-ənənələrinə, dini qaydalara hörmətlə yanaşan, Quranı bilən adam olub. Bu səbəbdən də o illərdə, çətin olsa da, kənd camaatını inandıra bilib ki, teatrla məşğul olmaq heç də küfr iş deyil. Gənc olsa da, söhbətləri kənd camaatını qane edib. Ona görə də atama "Həci qədeş" deyə müraciət ediblər və məşqlərdə bal, nehrə yağı gətirib, atama qulluq göstərirmişlər.

*– Abbas Mirzə Şərifzadə ilə tanışlığı oradan başlayıb?*

– Bəli. Atam günlərin birində A.M.Şərifzadəni "Dağılan tifaq" tamaşasına baxmağa dəvət edib. Abbas Mirzə atamın oyununu bəyənib və onu indiki Akademik Dram Teatrına dəvət edib. Qeyd edim ki, 1926-cı ildə Teatr Texnikumunun ilk məzunlarından biri də atam olub.

*– Hacıməmməd Qafqazlının həyatında Cəfər Cabbarlı ilə dostluğu xüsusi yer tutur. Bu dostluq necə başlayıb?*

– Babam Lənkərandan köçüb Bakıya gələndə keçmiş Sovetski, indiki Nəriman Nərimanovda ev alıb. Cəfər Cabbarlı ilə ilk tanışlıqları və sonradan yaranan dostluq əlaqələrinin təməli elə yaşadıqları küçədən başlayıb. Atamla Cəfər Cabbarlının arasında bir yaş fərq vardı. Onun 1934-cü ildə vaxtsız vəfatı atama çox təsir edib. Hər zaman danışardı ki, Cabbarlının dəfninə bəlkə də Bakının yarısı yığılmışdı. Deyirdi ki, eyni izdihamı Ərəblinskinin dəfn mərasimində də görüb. Sonralar da atam C.Cabbarlının ailəsini unutmazdı. Hər zaman hörmətlə yad edərdi. Novruz bayramında birinci Sona xanımı təbrik edərdi. Bayramlaşmaq üçün əvvəlcə onların evinə gedər, sonra isə bütün qohumları ziyarət edirdi.

*– Nəzakət xanım, atanız 39 yaşında ailə həyatı qurub. Belə gec ailə qurmağının səbəbi nə idi?*

– Ailənin yükü atamın üzərinə tez düşüb. Analığı evlənməsinə imkan verməyib. Baxmayaraq ki, ögey ana babamdan sonra, onun köməkçisi ilə ailə qurub. Amma buna baxmayaraq, ailənin əsas yükü yenə də atamın üzərində olub. Atam 39 yaşında qohumlarının təkidi ilə ailə qurur. Analığı atama babamdan qalmış qızılları belə verməyib. Vəziyyəti belə görən atamın qohumlarından biri özünün nişan üzüyünü barmağından çıxararaq atam üçün bəyənib elçi getdikləri qızın, yəni anamın barmağına taxır.

*– Ananız da lənkəranlı idi?*

– Bəli, lənkəranlı idi. Atamla ailə quranda 16 yaşı olub. Amma aralarındakı böyük yaş fərqinə baxmayaraq, anam atamı altıncı övladı kimi sevirdi, bəsləyirdi. Onun yeməyi, qulluğu hamıdan əvvəl olardı. Atam ailəcanlı adam olub. Evlənəndən bir il sonra atama indiki Adil İsgəndərov küçəsindən ev veriblər.

*– Hacıməmməd Quluzadəyə "Qafqazlı" təxəllüsünün verilməsinin yəqin maraqlı tarixçəsi var.*

– Atam mətbəədə çalışdığı illərdə Daşkənddən bir neçə adam Bakıya gəlir. O zamanlar Daşkənddə hələ qəzet çap olunmurmuş. Gələn adamlar bir neçə çap maşını alırlar. Sonra fikirləşirlər ki, bu maşınları Daşkənddə işlədəcək mütəxəssis yoxdur. Mətbəədəki mürəttiblərə müraciət edirlər ki kim bizimlə Daşkəndə gəlmək istəyər. Atam deyir ki, mən gedərəm. Onsuz da ögey ana himayəsində yaşayır və düşünür ki, mühiti dəyişmək onun üçün daha yaxşıdır. Beləliklə, Özbəkistana gedir. Atam Daşkənddə Turan Tərəqqipərvərlər Cəmiyyətində "Turan" adlı qəzet nəşr etdirməyə başlayır. Dram dərnəyi yaradır. Dram dərnəyində hazırladığı tamaşanın afişasını yazmaq istəyirlər. O zamanlar aktyorlar özlərinə təxəllüs götürərdilər. Atamdan soruşurlar ki, sizi necə yazaq. Atam da "Siz hamınız mənə özbək şivəsi ilə "Kəfkəzli bəradərim" deyirsiniz. Elə təxəllüsümü də Qafqazlı yazın" deyir. Ondan sonra atam Hacıməmməd Qafqazlı kimi tanınır. Atam özbək dilini də bilirdi. Orada ilk dram dərnəyini yaradıb. Özbəklər qədirbilən xalqdır. "Özbək teatrının tarixi" adlı ikicildlik kitab var. Həmin kitabda qeyd ediblər ki, Özbək teatrının bünövrəsini Bakıdan gələn Hacıməmməd Qafqazlı və Sidqi Ruhulla qoyublar. Atam iki ilə yaxın Daşkənddə qalıb, sonra Bakıya gəlib. Maştağadakı dram dərnəyini Daşkənddən qayıtdıqdan sonra yaratmışdı.




*– Atanız Akademik Dram Teatrında uzun illər çalışıb. Amma ona baş rollar verilməyib.*

– Atamın baş rollar oynamamasına ilk səbəbkar Rusiyadan gələn rejissor A.Tuqanov olub. Atam o zamanlar teatrda həmkarlar ittifaqının sədri olub. Bütün aktyorların dərdinə yanırdı. Məsələn, İsmayıl Dağıstanlı Şəkidən təzə gələndə qalmağa yeri olmayıb. Atam onun üçün evdən yorğan-döşək, balış aparıb. Bir müddət teatrda qalıb. Rza Əfqanlıya da kömək edib. Çoxlarına belə köməkliyi olub. Teatrın ictimai işləri ilə yanaşı, sənəti ilə də yüksək səviyyədə məşğul ola bilirdi. Bir gün Tuqanovun yanına gedərək "Yoldaş Tuqanov, niyə mənə böyük rollar vermirsiniz" deyə soruşur. Tuqanov isə "Yoldaş Qafqazlı, sən ictimai işlərdə fəalsan. Sənin böyük rollar oynamağa vaxtın çatmaz" deyərək atamın ümidlərini puç edir. Bu işin də təməli necə qoyulursa, elə də davam edir. Çətini odur ki, sənətkarın yolunu bir dəfə kəssinlər. Sonradan gələnlər də yola o şəkildə davam edirlər.

*– Bizim nəslin nümayəndələrinə Hacıməmməd Qafqazlını səhnədə görmək qismət olmayıb. Sadəcə, filmlərdə çəkildiyi epizodik obrazlarla tanımışıq.*

– Atam filmlərdə az çəkilib. Teatrda 200-dən çox irili-xırdalı rollar ifa edib. Cəfər Cabbarlının bütün pyeslərində çıxış edib. Təkcə "Yaşar"da oynamayıb. "Solğun çiçəklər"də Axund rolunu elə oynamışdı ki, görmək lazım idi. C.Məmmədquluzadənin "Ölülər"ində də. Ümumiyyətlə, hansı əsərdə ərəb-fars tərkibli sözlər, monoloqlar çoxluq təşkil edirdi, atam həmin obrazların öhdəsindən məharətlə gəlirdi. Atam ilk təhsilini mollaxanada aldığına görə fars dilini öyrənmişdi. Ərəb dilini də Qurana görə bilirdi.

*– "Yeddi oğul istərəm", "Bir cənub şəhərində", "Qorxma, mən səninləyəm!" filmlərində axund, molla obrazlarını canlandırıb.*

– Rejissorlar bilirdilər ki, atam Quranı yaxşı bilir. Ona görə də din xadimi obrazlarını ona həvalə edirdilər. "Yeddi oğul istərəm" filminin çəkilişləri zamanı maraqlı hadisə baş verib. Filmdə Çalpapaq Kərəmin dəfn səhnəsi Buzovnada çəkilib. Həmin epizodda atam (kənd sakini) komsomol Bəxtiyara yaxınlaşıb: "Oğul, elimizin adəti var. Mərdi torpağa tapşıranda, gərək Allah kəlamı oxunsun. Axund Şirəli gəlib çıxmadığına görə, izn ver Allah kəlamını mən oxuyum" deyir və "Yasin" surəsini avazla oxumağa başlayır. Bu səhnənin çəkilişi başlamazdan əvvəl Buzovna kəndinin ağsaqqalları etiraz edirlər ki, hər oyundan çıxmısınız, indi də "Yasin" surəsini ələ salacaqsınız. Elə ki atam "Yasin"i avazla oxumağa başlayır, hamı diqqətlə dinləyir. Görürlər ki, sözləri düzgün tələffüz edir, avazı gözəldir. Onda anlayırlar ki, dindən başı çıxan adamdır. Çəkiliş bitdikdən sonra kənd ağsaqqalları atama yaxınlaşıb minnətdarlıqlarını bildirirlər. Atam 84 yaşında vəfat etdi. Ömrünün sonuna qədər namaz qılırdı, ibadət edirdi. Amma teatrsız çox darıxırdı.


Hacıməmməd Qafqazlı (oturanlar cərgəsində soldan birinci)

*– Teatrdan gedəndə neçə yaşı var idi?*

– Yaşı 70-i ötmüşdü. Amma gümrah idi. Qüvvəsi var idi. Səhnədə oynamağa gücü çatırdı. Həmin vaxt Akademik Dram Teatrının baş rejissoru Tofiq Kazımov idi. Atamı və bir neçə aktyoru çağırıb demişdi ki, gənclərə yol verməliyik. Atam həmin dəqiqə ərizəsini yazıb teatrdan evə gəlmişdi. Qürurlu adam idi. İstənilmədiyi yerdə qalmayıb. Amma teatrdan getmək ona pis təsir etmişdi ki, hər gün gəzmək adı ilə evdən çıxar, teatrın ətrafında bir neçə dəfə dolanıb qayıdardı. Premyeraları qaçırmazdı. Hər birinə gedib tamaşa edərdi. "Əməkdar artist" adını 45 yaşı olanda almışdı. 70 yaşınadək səhnədə oldu. Amma "Xalq artisti" adını vermədilər.

*– Səbəbləri nə idi?*

– Münasibətlər hər şeyi həll edirdi. Təqdimatı teatr etməlidir, teatr verməlidir. Tuqanovla başlayan soyuq münasibət sonra da davam etdi. 50-ci ildə teatr Özbəkistana qastrola gedir. Səfər ərəfəsində Sidqi Ruhulla xəstələnir. Tamaşada da rolu varmış, dublyoru da olmur. Teatr qalır çıxılmaz vəziyyətdə. Həmin vaxt atam teatrın rəhbəri Adil İsgəndərovun yanına gələrək Sidqi Ruhullanın əvəzinə oynaya biləcəyini deyir. İki günə rolu əzbərləyir və gözəl də ifa edir. Qastrol səfərindən qayıdandan sonra Adil İsgəndərov tamaşanı çətin vəziyyətdən qurtardığı üçün atama təşəkkür edir. Həmin qastrol səfərində atamı yenidən səhnədə gördükdən sonra Özbəkistan Dram Teatrı ona iş təklifi etmişdi. Atama deyiblər ki, ailəni də götür, buraya köç. Sənə şəhərin mərkəzində ev verərik. Qısa müddətdən sonra isə Özbəkistanın "Xalq artisti" adına layiq görülərsən. Onlar atamın bir zamanlar Özbəkistanda teatr sənəti üçün etdiklərini unutmayıblar. Getməyib. Vətəninə, qohum-əqrəbasına bağlı adam idi.

*– Yəqin eviniz sənət adamları sarıdan qonaq-qaralı olub.*

– Atam aktyor yoldaşları ilə evə gəlib, süfrə arxasında oturmağı da çox sevərdi. Anam cənub mətbəxinin ləziz təamlarından hazırlayardı. Xüsusən də Novruz bayramı ərəfəsində atam dostları ilə bizə yığışardı. Həsənağa Salayev, Əliheydər Ələsgərov, sonra Əliağa Vahid bizə tez-tez gələrdi. Bir rus arvadı var idi. Həmişə onunla gəlirdi. Atama deyirdi ki, bu rus arvadı mənə elə yaxşı baxır, amma mənim fikrim, zikrim uşaqlarımın anasının yayındadır.

*– Əliağa Vahidin sizə bir misra şeir həsr etdiyini eşitmişəm.*

– Deməli, bir dəfə Əliağa Vahid bizə gəlmişdi. Mən 6-cı sinifdə oxuyurdum. Məktəbdən evə gəldim. Ə.Vahidi qonaq otağında görüb salamlaşdım və otağıma keçdim. O vaxt uşaqlar böyüklərin yanında oturmazdılar. Yenidən otağa qayıdanda məni yanına çağırdı. Soruşdu ki, qızım, adın nədir? Dedim ki, Nəzakət. Vahid atama hədiyyə gətirdiyi kitabın ilk səhifəsinə bu misraları yazdı:

*"Gözəlin adətidir,*
*sevgisinə nazlı olar,*
*Bu Nəzakətdə olanlar*
*çoxu Qafqazlı olar".*

*– Vahiddən söz düşmüşkən, yadınızda necə qalıb?*

– Çox sadə, istedadlı adam idi. Geyimi də sadə idi, danışığı, üslubu da. Yaxşı insan, böyük qəzəlxan idi. Heç təsadüfi deyil ki, bu günə qədər onun qəzəlləri dillərdə əzbərdir. Əliağa Vahid atamla gəncliyindən dostluq edib. Hətta atamın toyunda səhərə qədər meyxana deyib. Babam şair olduğuna görə atam şeirə, qəzələ bağlı idi. Hafizəsi çox güclü idi. Hər dəfə əlimdən tutub şəhərə gəzməyə aparanda Bakı milyonçularının tikdirdikləri binaların tarixini mənə danışardı.

*– Hacıməmməd Qafqazlının adına küçə, mədəniyyət evi varmı?*

– Yoxdur.

*– Heç Lənkəranda da adını əbədiləşdirməyiblər?*

– Xeyr. Hacıməmməd Qafqazlı çox sadə həyat tərzi sürüb. Ailəni saxlamaq üçün gün ərzində üç-dörd yerə qaçırdı. Televiziyadan çıxıb dublyaja, dublyajdan çıxıb radioya gedirmiş. Beş uşağı dolandırmaq asan deyildi. Övladları da deputat, yüksək vəzifə sahibi olmadı. Yəqin olsaydı, adı tez-tez televiziyalarda çəkilərdi, adına küçə verilərdi.

Hacıməmməd Qafqazlını qiymətini almayan istedadlı aktyor sayıram. Atam olduğu üçün demirəm. İncəsənət sahəsindən başı çıxan, kənardan tamaşaçı olan bir adam kimi deyirəm. Aktyorun mütaliəsi geniş olmalıdır. Onun səsinin tembri, savadı, rola girməyi bir başqa idi. Sədinin, Füzulinin qəzəllərini əzbər bilirdi. Əqidəli, Allahını, Peyğəmbərini tanıyan adam idi. Sizə maraqlı, həm də baməzə əhvalat danışım. Atam Hüseyn Cavidin "Şeyx Sənan" əsərində Şeyx Kəbir rolunda çıxış etmişdi. Bir gün atam eşidir ki, onun həmin tamaşadan çəkilən fotolarını Təzəpir məscidinin qarşısında satırlar.

*– Kim satırmış?*

– Tamaşadan şəkillər çəkən fotoqraf. Deməli, Təzəpir məscidinin qapısında dayanıb gəlib-gedənə atamın obrazdan olan fotosunu göstərərək, "bu adam Məkkədə yaşayan məşhur üləmalardan, din alimlərindən biridir, çox tanınmış şeyxdir" deyərək atamın fotolarını satırmış.

*– Sonralar həmin fotoqraf satdığı şəkillərin halallığını atanızdan almayıb?*

– (*Gülür*) Yox, siz nə danışırsınız? Nə halallıq almaq? Elə düşüncəsi olsa, adamları aldadaraq aktyorun fotosunu üləma adı ilə satardımı? Atam bu hadisədən gec xəbər tutdu. Artıq satan satmış, alan da almışdı.

*– Nəzakət xanım, atanızın son illərini necə xatırlayırsınız?*

– Son günlərinə qədər teatrdan danışırdı. Amma çox incik idi. 1982-ci il sentyabrın 21-də dünyasını dəyişdi. Dəfn mərasimi izdihamlı oldu. Akademik Teatrdan çox adam gəlmişdi. Cavan aktyorların hamısı dəfndə iştirak edirdi. Atama teatrda hörmət edənlər çox idi. "Hacı dayı", "Həci qədeş" deyə müraciət edərdilər. Atam da sağlığında əlindən gələn köməyi heç kimdən əsirgəməzdi. Bir haşiyə də çıxım. Atam "Ölülər" əsəri hazırlananda Şeyx Nəsrullah obrazını ifa edən Məlik Dadaşova xüsusi dərs keçmişdi. Əsərdə ərəb-fars tərkibli sözlər, birləşmələr var. Onların mənasını, deyilmə tərzini Məlik Dadaşova başa salırdı. Özü də həmin quruluşda Cəlalın müəllimi obrazında çıxış edirdi. Atamın ifa etdiyi obrazları indi Xalq artisti Hacı İsmayılov oynayır. Atamın obrazları Hacı İsmayılova çox uyğun gəlir.

*– Zahirən də bənzərlik var...*

– Oyun tərzini də çox bənzədirəm. Məsələn, "Ölülər"də atamın oynadığı obrazı hazırda Hacı İsmayılov ifa edir. "Almaz"da Aftili atam da oynamışdı. Bu gün isə Hacı İsmayılov ifa edir. Onun oyun tərzi atama çox yaxındır. Ona görə də Hacı İsmayılovun çıxış etdiyi tamaşalara hər zaman baxıram.

*– Maraqlı söhbətə görə sizə minnətdaram.*

– Atamı xatırladığınıza görə, mən sizə təşəkkür edirəm.

**Söhbətləşdi:**
**Ülviyyə Həsənqızı**

# Elektron nəşrlərin təbliği yolları



Elektron kitabxana kitabxananın fonduna daxil olan tammətnli nəşrlərin, o cümlədən dövri və ardı davam edən nəşrlərin və s. mühafizəsini təmin etmək, oxucuya xidmətin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə yaradılır. Kitabxananın elektron fondu da sahəvi, elmi, elmi-kütləvi, bədii ədəbiyyat və soraq-məlumat nəşrlərindən ibarət olur. Oxucu kitabxananın saytında yerləşdirilən elektron kataloqa daxil olaraq buradakı nəşrlərlə tanış olur, istədiyi nəşrlər haqqında məlumat alır.

Kitabxanaçı kitab fondunu oxucu üçün əhatəli şəkildə açmaq məqsədilə müxtəlif virtual tədbirlərdən istifadə edir. Elektron nəşrlərin əsasında virtual ədəbiyyat sərgiləri, mühazirələr, söhbətlər, biblioqrafik icmallar, oxucu konfransları, kitab tövsiyələri, müəlliflər və oxucular ilə görüşlər keçirmək mümkündür.

Belə mütaliə növü üçün kitabxananın saytında "Birlikdə mütaliə edirik" adlı səhifə də açmaq mümkündür. Burada oxucu sorğularına və maraqlarına uyğun şəkildə seçilmiş klassik və müasir ədəbiyyat nümunələrinin PDF formaları yerləşdirilir. Oxucu onları vərəqləyir, öz planşetinə və ya mobil telefonuna yükləyə bilir.

Ənənəvi kataloq və kartoteka sistemi ilə yanaşı elektron kataloqdan istifadə etməklə biblioqrafik xidmət göstərmək, oxucuları məlumat-biblioqrafiya bilikləri ilə maarifləndirmək mümkündür. Saytın onlayn xidmət bölməsi vasitəsilə biblioqrafik sorğuların icrası həyata keçirilə, biblioqrafik sorğular cavablandırıla bilər. Bu zaman oxucuların elektron nəşrlərə olan sifarişi qısa zamanda yerinə yetirilər. Saytda "Yeni ədəbiyyat", "Tövsiyə edirik", "Bunlar maraqlıdır" və s. başlıqlı daimi virtual sərgilərin təşkil edilməsi, oxucuların istənilən mövzuda və istənilən elm sahəsinə dair sorğularını təmin etməyə və nəşr axtarışını asanlaşdırmağa kömək edər.

Əlamətdar günlərə həsr olunmuş, həmçinin görkəmli şəxsiyyətlərin yubileyləri münasibətilə sərgilərin təşkili də elektron kitabların öz oxucularını asanlıqla tapmalarına yardımçı olar.

Elektron kitabların oxucuya müvəffəqiyyətlə çatdırılmasında çap və elektron resursların məqsədyönlü və davamlı reklamı da önəmli rol oynayır. Bu fəaliyyət kitabxananın saytı, sosial şəbəkələrdəki səhifələri vasitəsilə həyata keçirilir. Mütaliəni kütləviləşdirən və mütaliə etmək bacarığını formalaşdıran kitabxanalar zamanın tələb etdiyi və maraq doğuran ən müxtəlif təbliğat formalarından istifadə etməlidirlər.

**Fidan Səttarova**
**Azərbaycan Milli Kitabxanasının əməkdaşı**

# Ədəbiyyat Muzeyinin Aran regional filialında Nazim Hikmətin 120 illik yubileyi

AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran regional filialı tərəfindən böyük türk şairi, yazıçı-dramaturq, ictimai xadim Nazim Hikmətin (1902-1963) 120 illik yubileyinə həsr olunan tədbir keçirilib. Bu barədə Ədəbiyyat Muzeyindən məlumat verilib.





Muzeyin Aran regional filialının müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı tədbiri açaraq türk inqilabi poeziyasının banisi Nazim Hikmətin ziddiyyətli və məşəqqətli bioqrafiyasından, həbsxana və qürbətdə keçən həyatından bəhs edib.

Nazim Hikmətin həyat və yaradıcılığını əks etdirən videoçarx və edibin ssenarisi əsasında çəkilən "Bir məhəlləli iki nəfər" bədii filmindən ("Azərbaycanfilm") epizod nümayiş olunub.

Şair-publisist, ədəbiyyatşünas Ramil Əhməd "Nazim Hikmətin həyatının Bakı dönəmi", Azərbaycan Yazıçılar Birliyi Gənclər şurasının sədri, Ədəbiyyat Muzeyinin dissertantı Fərid Hüseyn "Nazim Hikmətin şəxsiyyətindən doğan poetik dünyagörüşü", muzeyin dissertantı Ülviyyə Yusifova "Nazim Hikmətin ideoloji mübarizəsi" mövzusunda məruzələrini təqdim ediblər.

Filialın əməkdaşı Tofiq Abdullayev çıxışında Əməkdar mədəniyyət işçisi Aşıq Şakir Hacıyevlə Nazim Hikmətin Moskva şəhərində görüşündən bəhs edən bir xatirəni tədbir iştirakçıları ilə bölüşüb. Sahilə Müseyibova və qiraətçi Ərəstun Sadıqov şairin şeirlərindən nümunələr səsləndiriblər.

# Müasir uşaq ədəbiyyatının görkəmli nümayəndəsi

## Zahid Xəlilin 80 illiyi qeyd olunub



Aprelin 5-də Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Filologiya fakültəsinin təşkilatçılığı ilə müasir Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı, şair və pedaqoq, filologiya elmləri doktoru, ADPU-nun Ədəbiyyatın tədrisi metodikası kafedrasının professoru Zahid Xəlilin 80 illiyinə həsr olunmuş yubiley tədbiri keçirilib.

ADPU-nun rektoru professor Cəfər Cəfərov giriş sözündə yubilyarın həyat və yaradıcılığından söz açaraq vurğulayıb ki, Zahid Xəlil 60 ilə yaxındır bu ali təhsil ocağında fəaliyyət göstərir.

Universitetin Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti Bilal Həsənli və filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu Zahid Xəlil yaradıcılığı haqqında danışıblar.

Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının professoru Yaqub Babayev Zahid Xəlilin Azərbaycan ədəbiyyatında kiçikyaşlı uşaqlar üçün peyzaj lirikasının mükəmməl nümunələrini yaratdığını qeyd edib. Bildirib ki, o, əsərlərində həm bədii, həm də pedaqoq baxışı sərgiləyir.

Türkiyənin Çanaqqala 18 Mart Universitetinin professoru Məmməd İsmayıl canlı klassik olan Zahid Xəlilin Türkiyədə də çox yaxından tanındığını vurğulayıb, onun elm və sənətlə eyni dərəcədə məşğul olaraq mükəmməl nəticələr ortaya qoyduğunu bildirib.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi katibi Aygün Bağırlı Zahid Xəlilin institutun Elmi şurasının qərarı ilə təsis olunmuş "Uşaq ədəbiyyatı üzrə Abdulla Şaiq mükafatı"nın ilk laureatı seçildiyini diqqətə çatdırıb və mükafatı yubilyara təqdim edib.

ADPU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, Filologiya fakültəsinin dekanı vəzifəsini icra edən professor Mahirə Hüseynova da yubilyarı təbrik edib. Zahid Xəlilə universitetin rəhbərliyi adından uzunmüddətli ədəbi və elmi-pedaqoji fəaliyyətinə görə fəxri fərman təqdim edilib.

Bədii hissədə fakültənin "Meh" ədəbi dərnəyinin üzvləri ədibin yaradıcılığından nümunələr səsləndirib, mahnılar oxuyub, ədəbi kompozisiyalar nümayiş etdiriblər.

Sonda Zahid Xəlil çıxış edərək ona göstərilən diqqətə görə universitet rəhbərliyinə və ədəbi ictimaiyyətə təşəkkürünü bildirib.

# Kitabı sevdirək, sonra sataq...

Xəbər verdiyimiz kimi, 2-3 aprel tarixlərində "Azərbaycan Nəşriyyatları Assosiasiyası" İctimai Birliyinin təşkilatçılığı ilə Bakıda I Uşaq kitab festivalı keçirildi.



Kitaba, mütaliəyə marağın artırılması və bu kimi tədbirlər xüsusi önəm daşıyır. İlk olaraq deyim ki, ölkədəki əksər kitab sərgi-yarmarkalarında, təqdimat və müzakirələrində iştirak edərkən həmişə sırf yetişən nəsillər, kitab, oxucu vərdişi formalaşacaq potensial kitab alıcıları ilə bağlı festival arzum olub və belə bir layihənin reallaşması xəbəri məni çox sevindirdi.

Ələlxüsus da proqramlarının zənginliyi, sırf ticarət maraqları ilə məhdudlaşmaması xoş idi. Bu mənada satışda, yəni alverdə canfəşanlıq edən müxtəlif nəşriyyatlar, kitab evləri ilə yanaşı, maraqlı aksiyalar da diqqət çəkirdi. Məsələn, Türkiyədən dəvət olunmuş uşaq yazıçılarının imza mərasimləri, naşirlik və ümumən uşaqların elmi-texniki zəkasını gücləndirməyə hesablanan nümayişlər yaxşı hal idi.

Bundan başqa, festivalda nağıl, tamaşa saatlarının (həvəskar səviyyədə) təşkil olunması, tanınmış uşaq yazıçıları, eləcə də incəsənətin müxtəlif sahələrini təmsil edən mütəxəssislərlə görüşlər say etibarilə yetərli idi.

Amma təəssüf ki, bu dəfə də "Dad yarımçıq əlindən" deyib gileysiz ötüşə bilmirik.

Qeyd edim ki, "Passaj-1901"də – yəni qapalı məkanda baş tutan kitab bayramı üçün yer seçimi münasib deyildi. Birincisi ona görə ki, pandemiya şəraiti və qonaqların daha çox uşaqlardan ibarət olduğu nəzərə alınmalı idi.

İkincisi, nəşriyyat və kitab evləri, ayrı-ayrı müəlliflər və yaradıcı insanların stendlərində kifayət qədər qarışıqlıq, ümumi ideya və mərama (məsələn, "Öz kitabını sat" stendində bəzi aidiyyəti olmayan çap məhsulları da gözə dəyirdi) uyğun olmayan nümunələr də vardı. Bu mənada ara-sıra uşaqlar üçün yazmayan müəlliflər, profili uşaq naşirliyi olmayanlar da boy göstərirdilər.

Xalqımızın "Həm ziyarət, həm ticarət" kimi gözəl bir deyimi var. Yəni əvvəl gəz, sonra al. Təbii ki, bu ziyarətin də kökündə ticarət durur və oradakı mütləq əksəriyyət naşirlərin, kitab evləri və mağazaların, müəllif və menecerlərin məqsədi məhsullarını satmaq, daha çox qazanc əldə etmək idi. Amma bunu gözəl təşkil etmək var ikən "ondan yox, gəl məndən al" səviyyəsində nümayişə, bazarlığa nə hacət? Yaxud aldadıcı reklamlar, artıq kağız olaraq təkrar emala gedəcək vəziyyətdəki çap məhsullarını alıcıya sırımaq, aktuallığını, mövzu əhəmiyyətini və poliqrafik keyfiyyətini çoxdan itirmiş kitabçaları çətinliklə alıcı tapmış daha bahalı kitablarının paketinə qoymaq nə dərəcədə marketinqə hesablanmış addımdır?

Bu məqamda kitabların qiymət məsələsinə də nəzər salaq. Əksər nəşriyyatlarımızın, uşaq kitabı naşirlərimizin əsas gileyi çap məhsulunun qiymətidir. Elə alıcıların da. Naşirlər israrla ən bahalı, keyfiyyətli materiallardan (kağız, rəng, sap və. s) istifadə etdiklərini deyirlər. Alıcılar isə, əksinə, ucuz və kimyəvi baxımdan ziyanlı, aşağı keyfiyyətli xammal əsasında ərsəyə gələn nümunələrin bahalığından söz açırlar.

Müşahidələrimə əsasən deyə bilərəm ki, bəli, bir çox kitablar, xüsusən də uşaq və yeniyetmələr üçün elmi-populyar nümunələr daha baha idi. Bədii ədəbiyyat, daha çox da aşağı yaş qrupu uşaqlar üçün nümunələr də əsas etibarilə bazara uyğun deyildi. Əlimə aldığım bir çox kitabda (daha çox 6-12 yaş qrupu üçün) mövzu və mətnlər köhnə, imitasiya və birbaşa plagiat olduğundan üzərində çox dayanmaq istəmirəm...

Düşünürəm ki, naşirlər məhz bu məsələlər – tələb-təklif, yerli və xarici müəlliflərlə müqavilə ilə iş, tərcümə nümunələrində peşəkarlarla əməkdaşlıq, illüstrativ kitablarda artıq köhnəlmiş qrafika və kütləviləşmiş formalardan çox rəssamlarla fərdi əməkdaşlığa maraq, kitabların texniki tərtibatına və bədii redaktəsinə mütəxəssislərin cəlbi kimi üzərində ciddi dayanmalı və sahənin inkişafına birbaşa təsir edən bu kimi məsələlərə diqqət ayırmalıdırlar. Yalnız bundan sonra arzuolunan satışdan danışmaq mümkündür.

Kitabların bədii səviyyəsi – tərtibat və redaktəsi də mübahisə predmetidir. Müşahidə etdiyim bir neçə məktəbli təzəcə aldıqları kitabları dizləri üstünə qoyub kökələrindən yeyə-yeyə həyəcanla oxumağa başladılar. Aradan 3-4 dəqiqə keçməmişdi ki, "Aa, kitabda səhv yazıblar!", "Burda hərfi "yeyiblər!", "Multfilmi daha maraqlı idi!" kimi gileylər baş qaldırdı.

Çal-çağırın arasından sıyrılıb uşaqlara rəsm çəkmək üçün ayrılmış masaların yanına keçdim. Balacalardan çox böyüklərin boya, kağız, qələm, fırça hengaməsi olan-qalan həvəsimi də öldürdü. Buna kitab stendləri ilə az qala eyni sayda olan ayaqüstü yeyib-içmə sıralamasını da əlavə edəndə beynimdə belə bir təəssürat yarandı: bütün mənəvi qidalarımız qab-qacaq cingiltisiz ötüşmür...

Bütün hallarda, ikigünlük də olsa, uşaqlara qapalı məkan daxilində sərbəst əylənmək, tamaşaçı və alıcı vərdişi formalaşdırmaq, naşirlərə isə daha çox kitab satmaq imkanı yaradan tədbiri alqışlayır və daha yaxşı, peşəkar və sistemli fəaliyyət arzulayıram.

**Həmidə Nizamiqızı**

## Xatirə təqvimi — 9-12 aprel

### Azərbaycan

**9 aprel 1905** – Şair, ədəbiyyatşünas, tərcüməçi Cəfər Rəmzi (Cəfər Balaəmi oğlu İsmayılzadə; 1905 – 11.09.1996) Bakının Mərdəkan kəndində doğulub. Azərbaycan ədəbiyyatında işlədilən ərəb, fars sözləri lüğətinin tərtibçisidir.

**9 aprel 1931** – Əməkdar incəsənət xadimi, teatrşünas, sənətşünaslıq doktoru, professor Rahib Abuzər oğlu Hüseynov (1931 – 5.5.1994) Bakıda doğulub. Azərbaycan Dövlət Teatr İnstitutunun rektoru olub.

**9 aprel 1946** – Tanınmış aktyor və rejissor Ceyhun Cəmil oğlu Mirzəyev (1946 – 5.3.1993) Ağdam rayonunun Abdal Gülablı kəndində anadan olub. "Ögey ana", "Dəli Kür", "Yenilməz batalyon" və s. filmlərdə çəkilib. "Fəryad" filminin rejissoru və baş rol ifaçısıdır.

**9 aprel 2000** – Bakıda, Şəhidlər xiyabanında 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinə köməyə gəlmiş və burada şəhid olmuş türk əsgərlərinin xatirəsinə ucaldılan abidənin açılışı keçirilib.

**10 aprel 1923** – Yazıçı-dramaturq Salam Dadaş oğlu Qədirzadə (1923 – 16.11.1987) Bakıda anadan olub. "46 bənövşə", "Sevdasız aylar", "Sən olmasaydın" və s. nəsr əsərləri, "Şirinbala bal yağır", "Hardasan, ay subaylıq?!", "Həmişəxanım" komediyalarının müəllifidir.

**10 aprel 1928** – Əməkdar rəssam Solmaz Qurban qızı Musayeva (1928-2016) Bakıda doğulub. Azərbaycan Dövlət Kukla Teatrında quruluşçu rəssam və baş rəssam işləyib.

**10 aprel 1930** – Tanınmış dilçi alim, filologiya elmləri doktoru, professor Musa İsrafil oğlu Adilov (1930-1996) Quba rayonunda anadan olub.

**10 aprel 1939** – Xalq artisti, xanəndə Teymur Ağaxan oğlu Mustafayev (1939 – 11.6.2020) Cəlilabad rayonunda doğulub. 1964-cü ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olub.

**10 aprel 1979** – Əməkdar mədəniyyət işçisi, aşıq Şakir Şahverdi oğlu Hacıyev (1922-1979) vəfat edib.

**11 aprel 1854** – Yazıçı, dramaturq, publisist Nəcəf bəy Vəzirov (1854 – 9.7.1926) Şuşada anadan olub. Bəzi mənbələrdə doğum günü kimi 2, 7 aprel də göstərilir. "Müsibəti-Fəxrəddin" pyesi ilə Azərbaycan dramaturgiyasında faciə janrının əsasını qoyub. "Ev tərbiyəsinin bir şəkli", "Yağışdan çıxdıq, yağmura düşdük" və s. komediyaların müəllifidir.

**11 aprel 1908** – Məşhur paleontoloq alim, akademik Musa Mirzə oğlu Əliyev (1908-1985) Şamaxı şəhərində doğulub. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti (1950-1958) olub.

**11 aprel 1934** – Əməkdar incəsənət xadimi, fotojurnalist, Yaşar Xəlilov (1934-2018) Bakıda doğulub.

**12 aprel 1889** – Məşhur xanəndə, Xalq artisti Seyid Şuşinski (Mir Möhsün ağa Seyid İbrahim oğlu; 1889 – 1.11.1965) Füzuli rayonunun Horadiz kəndində anadan olub. 1930-60-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, pedaqoji fəaliyyət göstərib.

**12 aprel 1907** – Tanınmış folklorşünas, dramaturq Məmmədhüseyn Abbasqulu oğlu Təhmasib (1907 – 5.10.1982) anadan olub. Azərbaycan dastan və nağıllarının toplanması və tədqiqində mühüm xidmətləri var. Ssenariləri əsasında "Bir qalanın sirri", "Onu bağışlamaq olarmı?" filmləri çəkilib.

**12 aprel 1912** – Əməkdar artist, aktyor Məmmədağa Ağakərim oğlu Dadaşov (1912 – 3.12.1996) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrının yaradıcılarındandır. "Dədə Qorqud", "Yol əhvalatı" filmlərində çəkilib.

**12 aprel 2013** – Görkəmli aktyor, Xalq artisti Nodar Şaşıqoğlu (Nodar İzzətoviç Şaşıqoğlu; 13.3.1927 – 2013) vəfat edib. Azərbaycan Dövlət Rus Dram Teatrında çalışıb. "Uzaq sahillərdə", "Əsl dost", "Bizim küçə", "Telefonçu qız" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

### Dünya

**9 aprel 1821** – Fransa şairi və ədəbiyyatşünası Şarl-Pyer Bodler (Charles Pierre Baudelaire; 1821-1867) anadan olub.

**9 aprel 1906** – Amerikalı bəstəkar və dirijor Antal Dorati (1906-1988) anadan olub.

**9 aprel 1933** – Məşhur fransız aktyoru Jan Pol Belmondo (Jean-Paul Belmondo; 1933 – 6.9.2021) anadan olub. Filmləri: "Son nəfəsdə", "Missisipidə həyəcan", "Professional" və s.

**10 aprel 1847** – Amerika jurnalisti, naşir Cozef Pulitser (Joseph Pulitzer; 1847-1911) anadan olub. Jurnalistika aləmində məşhur Pulitser mükafatının təsisçisidir.

**10 aprel 1932** – Misir və Amerika aktyoru Ömər Şərif (əsl adı Mişel Demetri Şalhub; 1932 - 10.7.2015) İsgəndəriyyə şəhərində doğulub. Filmləri: "Ərəbistanlı Lourens", "Çingiz xan", "On üçüncü döyüşçü" və s.

**10 aprel 1937** – Tatar əsilli rus şairəsi Bella Axmadulina (1937-2010) anadan olub. "Titrəmə", "Musiqi dərsləri", "Çovğun", "Şam", "Bağ" və s. poetik topluların müəllifidir.

**11 aprel 1894** – Məşhur sirk ustası, illüzionist, Rusiyanın Xalq artisti Emil Kio (Qirşfeld-Renard; 1894-1965) anadan olub.

**11 aprel 1914** – Kanada kinorejissoru və rəssamı, multiplikator, "Oskar" mükafatı laureatı Norman MakLaren (1914-1987) anadan olub.

**12 aprel 1823** – Rus dramaturqu Aleksandr Nikolayeviç Ostrovski (1823-1886) anadan olub. "Kasıblıq eyib deyil", "Gəlirli yer", "Tufan", "Cehizsiz qız", "Balzaminovun evlənməsi" və s. pyeslərin müəllifidir. Bir sıra pyesləri əsasında filmlər çəkilib.

**12 aprel 1928** – Gürcü opera müğənnisi, SSRİ Xalq artisti Zurab Ancaparidze (1928 -12.4.1997) anadan olub.

**12 aprel 1933** – Məşhur ispan opera müğənnisi (soprano) Montserrat Kabalye (Caballe; 1933 – 6.10.2018) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Muğamşünaslıq elminə dəyərli töhfə

Görkəmli bəstəkar, Əməkdar incəsənət xadimi, pedaqoji elmlər doktoru, professor Oqtay Rəcəbovun və Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Gülnaz Abdullazadənin müəllifi olduqları "Azərbaycan xalq musiqisi janrlarının təhlili" kitabı "Mütərcim" nəşriyyatında işıq üzü görüb.




Giriş, 4 fəsil, 11 paraqraf, nəticə və notoqrafiyadan ibarət olan kitab musiqi təmayüllü ali və orta ixtisas məktəbləri üçün nəzərdə tutulub.

Xalqımıza məxsus olan bütün musiqi janrlarının geniş şəkildə təhlil edildiyi kitabda Azərbaycan muğamları ilə əlaqədar mühüm bir yeniliyə də toxunulub. Məlum olduğu kimi, dahi Üzeyir Hacıbəyli "Azərbaycan xalq musiqisinin əsasları" adlı kitabında muğamlarımızın insana ruhi təsirindən söhbət açır, "Rast"ın qəhrəmanlıq, "Şur"un lirik əhval-ruhiyyə, "Segah"ın sevgi, "Humayun" və "Şüştər"in kədər hissləri yaratdığını göstərir. Eyni zamanda Azərbaycan muğamlarının çoxlu sayda şöbələrinin hər birinin məxsusi emosional təsir imkanları da var ki, indiyədək geniş tədqiq edilməyib. Bu baxımdan yeni kitabın müəllifləri muğamlarımızın şöbələrinin adlarının hər birinin mənasının əks etdirdiyi emosional əhval-ruhiyyəni cədvəllər şəklində göstəriblər ki, bunları muğam nəzəriyyəsi tarixində yenilik kimi qeyd etmək olar.

Layihə rəhbəri Xalq artisti, professor Fərhad Bədəlbəyli, elmi məsləhətçisi isə Xalq artisti, professor Siyavuş Kərimi olan kitab muğamşünaslıq elminə dəyərli töhfədir.

№27 (1900)
8 aprel 2022
www.medeniyyet.az

# Özbəkistanda Azərbaycan mədəniyyəti günləri





əvvəli səh. 1-də

Heydər Əliyev adına AMM-in direktoru Samir Abbasov mədəniyyət günləri çərçivəsində Daşkənd və Termez şəhərlərində tədbirlərin keçiriləcəyini, kitabxanalarda Azərbaycan fondları və guşələrinin açılışı, kitab təqdimatları, sənətçilərin iştirakı ilə dostluq konsertləri, moda sərgiləri, habelə ikitərəfli görüşlərin nəzərdə tutulduğunu bildirib.

2022-ci ilin Azərbaycanda "Şuşa İli" elan olunduğunu diqqətə çatdıran S.Abbasov otuz ilə yaxın sürən erməni işğalından sonra azad edilən bütün yurd yerlərimizdə, ilk növbədə Şuşa şəhərində bərpa işlərinin başlandığını, məhv edilmiş mədəniyyət ocaqlarının, o cümlədən kitabxanalarımızın yenidən qurulacağını söyləyib.

Özbəkistan Ali Məclisinin deputatı, şair və tərcüməçi Gülbahar Saidqaniyeva iki ölkə arasında mədəni əlaqələrin dinamik inkişafından fərəh hissi keçirdiyini, aparılan sistemli iş nəticəsində mədəniyyətin bütün sahələrini əhatə edən əməkdaşlıq platformasının qurulduğunu vurğulayıb.

Millət vəkili Qənirə Paşayeva xalqlarımızın dost, qardaş münasibətləri, mədəni və ədəbi əlaqələrimiz haqqında söz açaraq, günü-gündən yüksələn Azərbaycan-Özbəkistan əməkdaşlığının tarixi kökləri olduğunu, bu işdə iki ölkə rəhbərlərinin xidmətlərini qeyd edib. Deputat bu münasibətlərin inkişafına görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və özbək xalqına minnətdarlığını bildirib. Q.Paşayeva çıxışında tarixi Zəfərlə bitən 44 günlük Vətən müharibəsindən də bəhs edib, işğal dövründə şəhər və kəndlərimizin Ermənistan tərəfindən yerlə yeksan edildiyini deyib.




Deputat Müşfiq Cəfərov da çıxışında ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib, bu yaxınlarda Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarovanın Özbəkistana səfəri və əməkdaşlığın daha da dərinləşdirilməsi istiqamətində aparılan danışıqlar haqqında məlumat verib.

Azərbaycan Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli ölkələrimiz arasında mədəniyyət sahəsində əməkdaşlıq, mədəniyyət günlərinin əhəmiyyəti haqqında danışıb, münasibətlərin bu səviyyədə olmasında AMM-in xüsusi rolunu qeyd edib. Şuşa şəhərinin TÜRKSOY tərəfindən 2023-cü il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edildiyini diqqətə çatdıran A.Maarifli bu çərçivədə keçiriləcək tədbirlərin də ölkələrimizin və xalqlarımızın dostluğuna töhfə verəcəyini deyib.

Tədbirdə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə Əlişir Nəvai adına Özbəkistan Milli Kitabxanası arasında əməkdaşlığa dair memorandum imzalanıb. Qeyd edək ki, kitabxanada yaradılan Azərbaycan fonduna 400 adda nəşrlər hədiyyə olunub.

AMM-in layihəsi ilə işıq üzü görən "Azərbaycan və özbək atalar sözləri" ikidilli nəşrin təqdimatı da keçirilib. Təqdimatda azərbaycanlı və özbək alimlərin çıxış və məruzələri dinlənilib.

# TÜRKSOY-da özbək şairi Məhəmməd Yusufun xatirəsi anılıb

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un fəaliyyət istiqamətlərindən birini qardaş xalqların görkəmli ədəbiyyat xadimlərinin tanıdılması təşkil edir. Bu xüsusda növbəti tədbir çağdaş özbək ədəbiyyatının tanınmış nümayəndələrindən olan şair Məhəmməd Yusufun (1954-2001) xatirəsinə həsr olunub.



Aprelin 5-də TÜRKSOY-un qərargahında şairin seçilmiş əsərlərindən ibarət kitabın təqdimatı keçirilib.

Tədbirdə TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, Özbəkistanın Ankaradakı səfiri Əlişir Azamhocayev, Özbəkistan Yazıçılar Birliyinin sədr müavini Nadir Canuzak açılış nitqi söyləyiblər.

Bilal Çakıcı şeirləri ilə xalqının duyğularını dilə gətirən görkəmli özbək şairinin kitabını türkiyəli oxuculara təqdim etməkdən qürur duyduqlarını deyib. Vurğulayıb ki, Məhəmməd Yusufun qısa ömründə qələmə aldığı şeirlər bu gün də öz dəyərini qoruyub saxlayır, gənc nəsillər üçün ilham mənbəyi olmaqda davam edir.

Təqdim olunan nəşrin əhəmiyyətindən bəhs edən B.Çakıcı bildirib ki, TÜRKSOY, digər sahələrdə olduğu kimi, Türk dünyasını ədəbiyyat baxımından da yaxınlaşdırmaq, əlaqələrini gücləndirmək məqsədilə belə nəşrlərin ərsəyə gəlməsinə dəstək verir: "Məhəmməd Yusufun kitabını ilk dəfə türk dilinə çevirərək Özbəkistan Dövlət İncəsənət və Sivilizasiya İnstitutu ilə birgə nəşr etdik. Bu işdə əməyi olan hər kəsə təşəkkür edirəm...".

Açılış nitqlərindən sonra "Məhəmməd Yusuf. Seçmələr" kitabının rəmzi lenti kəsilib.

Özbəkistan Dövlət İncəsənət və Sivilizasiya İnstitutunun şöbə müdiri Marufjon Yuldaşev, institutun Özbək dili və ədəbiyyatı kafedrasının müdiri Dilnoza Jumayeva, Ankara Hacı Bayram Vəli Universiteti Ədəbiyyat fakültəsinin müəllimi Vəli Savaş Yelok və digər çıxış edənlər şairin həyat yolu, yaradıcılığı haqqında danışıblar.

**Mehparə Sultanova**
**Ankara**

# Nizami Kino Mərkəzində latviyalı rejissorun filmi təqdim olunub

Aprelin 6-da Nizami Kino Mərkəzində latviyalı rejissor İnara Kolmanenin "Bille" filminin təqdimatı keçirilib. Təqdimat Latviyanın Azərbaycandakı Səfirliyi tərəfindən təşkil edilib.

Tədbirdə çıxış edən kino tənqidçisi Ülvi Mehdi qonaqları salamlayaraq latviyalı rejissor İnara Kolmane ilə bir neçə il əvvəl beynəlxalq festivalda tanış olduğunu bildirib, rejissorun filmlərinin əhəmiyyətindən bəhs edib.

Bakıya ikinci dəfə səfər etdiyini bildirən İnara Kolmane indiyədək burada onun üç filminin göstərildiyini diqqətə çatdırıb.

"Sizin şəhərinizi sevirəm. Yenidən Bakıya gəldiyim üçün çox şadam. Ümid edirəm ki, "Bille" filmi də sizin xoşunuza gələcək. Film yeddiyaşlı Bille adlı balaca qızın həyatından bəhs edir. Filmdə qadınlara, sülhə və azadlığa yer verilib", - deyə rejissor qeyd edib.

Sonra film nümayiş olunub.




# Qarabağ atları Fransa xəbər portalında



Azərbaycan Dövlət Tərcümə Mərkəzinin "Şuşa İli" münasibətilə fransız dilində hazırladığı "Qarabağ atları" məqaləsi Fransanın "La Gazette" xəbər portalında yayımlanıb.

Məqalənin müəllifi tarix üzrə fəlsəfə doktoru Hacı Abdulla, fransız dilinə tərcüməçisi Dövlət Tərcümə Mərkəzinin mütəxəssisi Fərhad Tağızadədir.

"La Gazette" portalı səhifələrində beynəlxalq aləmdə cərəyan edən ictimai-siyasi proseslərlə yanaşı, elm və mədəniyyət hadisələri ilə bağlı xəbər və materiallara da geniş yer verir.

# Rusiyanın incəsənət əşyaları Finlandiyada saxlanılıb

## Ümumi qiyməti 42 milyon avrodan çoxdur

İtaliyanın Milan və Udine şəhərlərindəki sərgilərdən geri gətirilən Rusiya muzeylərinə məxsus əşyalar Finlandiyada saxlanılıb. Finlandiya gömrük orqanları incəsənət əşyalarının üzərinə həbs qoyulduğunu təsdiqləyib.

Gömrüyün rəsmi nümayəndəsi Sami Rakşit bildirib ki, saxlanılan incəsənət əsərlərinin ümumi dəyəri 42 milyon avrodan çoxdur. Qiymətləri 10 milyon, 26 milyon və 6 milyon avro bəyan edilən üç yük Finlandiya gömrüyündədir. Lakin təhlükəsizlik məqsədilə onların dəqiq yeri göstərilmir.

İncəsənət əsərləri Rusiyaya qarşı tətbiq edilən ixrac sanksiyaları çərçivəsində saxlanılıb. Gömrük orqanları işlə bağlı təhqiqata başlayıblar.

Hadisə ilə bağlı Rusiyanın Mədəniyyət və Xaric İşlər nazirlikləri bəyanat yayaraq muzey əşyalarının saxlanılmasını hüquqi özbaşınalıq adlandırıblar.

Bildirilir ki, Milan və Udine şəhərlərində ötən ilin oktyabrından bu ilin martınadək iki layihə üzrə sərgilənən əsərlər Rusiya Dövlət Ermitajı (Sankt-Peterburq), Dövlət Tretyakov Qalereyası və A.S.Puşkin adına Dövlət Təsviri İncəsənət Muzeyinin eksponatlarıdır.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 387 il əvvəl...

**11 aprel 1635-ci ildə** növbəti Səfəvi-Osmanlı müharibəsi (1623-1639) gedişində türk qoşunları İrəvan qalasını geri alıblar. Qala 1604-cü ildə Səfəvi-Osmanlı müharibəsi (1603-1612) zamanı I Şah Abbas tərəfindən tutulmuş və İrəvanın idarəçiliyi Əmirgünə xan Qacara verilmişdi. Sonrakı iki əsrdə İrəvan bölgəsi (xanlığı) daha bir neçə dəfə Səfəvilərlə Osmanlılar arasında əldən-ələ keçdi. 1827-ci ildə İrəvan xanlığı çar Rusiyası tərəfindən işğal edildi.

### 219 il əvvəl...

**12 aprel 1803-cü ildə** Tiflisdə Car-Balakən bölgəsinin Rusiya tərkibinə qatılması şərtləri və "Andlı öhdəlik haqqında" saziş imzalanıb. Bundan əvvəl (1801) Şəmsəddil və Borçalı mahalları Rusiyaya ilhaq edilmişdi. Car-Balakənin ələ keçirilməsi ilə Rusiyanın Azərbaycan torpaqlarını istilası genişləndi. Rusiya öncə Car-Balakənə nisbi muxtar idarəçilik (camaatlıq) versə də, sonradan onu ləğv etdi.

### 182 il əvvəl...

**11 aprel 1840-cı ildə** Çar I Nikolay "Cənubi Qafqaz diyarının idarəsi üçün təsisatlar haqqında" fərman imzalayıb. Rusiyaya birləşdirilən Azərbaycan bölgələrində hərbi komendantlıq idarəsi ləğv olunub və 1841-ci ildən Ümumrusiya idarə sistemi tətbiq edilib.

### 166 il əvvəl...

**11 aprel 1856-cı ildə** ABŞ-ın müstəmləkəsi olan Kosta-Rika müstəqil dövlət olub. Maraqlıdır ki, XX əsrin sonlarında Kosta-Rika ABŞ-a birləşmək fikrinə düşmüşdü, lakin Vaşinqton bunu rədd etdi.

### 161 il əvvəl...



**12 aprel 1861-ci ildə** ABŞ-da vətəndaş müharibəsi (Şimal-Cənub müharibəsi) başlayıb. Sənaye baxımından inkişaf etmiş şimal ştatları ilə aqrar cənub ştatları arasında başlanan müharibənin iqtisadi səbəbləri ilə yanaşı, mühüm siyasi səbəbi də vardı. Şimal ştatları quldarlığın ləğvinə tərəfdar idilər. Cənub ştatları isə quldarlıq sistemini saxlamağı zəruri sayırdılar. Müharibəyə formal səbəb isə ABŞ-ın o vaxtkı 34 ştatından 11-nin (cənublular) ayrılaraq Quldarlıq Ştatlarının Konfederasiyası elan etməsi oldu. Dörd il sürən müharibə Şimalın Cənub üzərində qələbəsi (1865) ilə başa çatdı.

### 102 il əvvəl...

**9 aprel 1920-ci ildə** erməni silahlı dəstələri daşnak Dronun komandanlığı altında Qazax bölgəsində (Əskipara, Fərəhli, Bağanıs Ayrım və digər kəndlərdə) azərbaycanlı əhaliyə qarşı qırğınlar törədiblər.

### 82 il əvvəl...

**9 aprel 1940-cı ildə** Almaniya Norveç və Danimarkaya hücum edib. Danimarkanın işğalı bir neçə saat çəkdi. Norveçlə müharibə isə iyunun 8-dək davam etdi. Avropanın şimalında strateji region olan Norveçin işğalından sonra Hitler həm Britaniya, həm də SSRİ-yə hücum üçün əlverişli imkan qazandı.

### 77 il əvvəl...



**11 aprel 1945-ci ildə** faşistlərin Buxenvald konslagerində məhbusların qiyamı başlayıb. Hitlerin sonuncu ölüm düşərgəsi ləğv olunub. 1937-ci ildə təşkil olunan Buxenvald konslagerinə səkkiz ildə 240 minə yaxın məhbus salınmış, onlardan 10 mini (o cümlədən 8,5 mini sovet hərbi əsiri) məhv edilmişdi.

### 61 il əvvəl...

**12 aprel 1961-ci ildə** insanın kosmosa ilk uçuşu baş verib. SSRİ-nin təyyarəçi-kosmonavtı Yuri Qaqarinin idarə etdiyi "Vostok" kosmik gəmisi təxminən 2 saat ərzində Yerin ətrafına fırlanaraq geri qayıdıb.

### 33 il əvvəl...

**9 aprel 1989-cu ildə** Gürcüstanın paytaxtı Tbilisidə əhalinin antisovet şüarlı kütləvi aksiyası hərbi qüvvələr tərəfindən yatırılıb. Hərbçilərlə toqquşmada 16 nümayişçi həlak olmuşdu. Tbilisi hadisələri 1986-cı ilin dekabrında Almatı şəhərində baş vermiş olaylardan sonra zorla yatırılan ikinci antisovet çıxışı idi. Onun ardınca Bakı, Vilnüs, Riqa hadisələri baş verdi.

### 22 il əvvəl...

**9 aprel 2000-ci ildə** Bakıda türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyi türkdilli ölkələrin dövlət başçılarının, UNESCO-nun Baş direktoru K.Matsuuranın iştirakı ilə qeyd olunub. Yubiley münasibətilə Respublika sarayında (indiki Heydər Əliyev Sarayı) təntənəli mərasim, "Gülüstan" sarayında rəsmi qəbul keçirilib.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 975
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641